

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 8 (24.494)
28 fevral 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi





# Xocalıya ədaləti təmin edən güclü lider və müzəffər Azərbaycan Ordusu

XX əsrin sonlarında Azərbaycanda baş verən hadisələr təkcə regional münaqişələr deyil, həm də beynəlxalq hüquq, humanitar dəyərlər və insanlıq anlayışı üçün ciddi sınaq oldu. Bu hadisələr sırasında Xocalı faciəsi təkcə bir şəhərin taleyi deyil, bütövlükdə, insanlığın vicdanına yönəlmiş ağır zərbə kimi tarixə düşdü. Bu hadisənin mahiyyəti yalnız tarixi faktların sadalanması ilə bitmir; onun nəticələri bu gün də regionun siyasi münasibətlərində, informasiya müharibəsində və kollektiv yaddaş siyasətində özünü göstərir. Müasir dövrdə Xocalı hadisələrinə baxış artıq yalnız xatirə və yas kontekstində deyil, həm də hüquqi, siyasi və informasiya təhlükəsizliyi aspektindən aparılır. Tarix göstərir ki, yaddaş qorunmadıqda ədalət zəifləyir. Buna görə də Xocalı mövzusu yalnız keçmişi anmaq deyil, həm də gələcəyi qorumaq məsələsidir.

### Xocalı hadisələrinə hüquqi baxış

1992-ci il fevralın 25-dən 26-na keçən gecədə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn bütün normalarını pozaraq mühasirədə olan Xocalı şəhərinin dinc sakinlərinə qarşı ağır hərbi texnikadan istifadə edərək görünməmiş qəddarlıqla repressiyalar həyata keçirib.

Bu gün artıq danılmaz faktdır ki, 34 il əvvəl Xocalı şəhərində törədilmiş soyqırımı aktının əsas təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, Ermənistan silahlı qüvvələri və 366-cı motoatıcı alayın şəxsi heyətidir. Onların hərəkətləri insan hüquqlarının kobud şəkildə pozulması, Cenevrə Konvensiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, Fövqəladə Hallar və Silahlı Münaqişələr zamanı Qadın və Uşaqların Müdafiəsi haqqında Bəyannamə və digər beynəlxalq hüquq aktlarına məhəl qoymamaq kimi qiymətləndirilir.

### Cinayətə ilk siyasi qiymət və Xocalıya ədalət!

Ümummilli Lider Heydər Əliyev ovaxtkı ölkə rəhbərliyinin mövqelərinə kəskin etirazını bildirərək demişdir: ***“Azərbaycanın və xalqımızın milli müstəqilliyi ilə bağlı xəyanətkar mövqeyi, öz konstitusiya borcuna cinayətkarcasına biganəliyi, siyasi hakimiyyət uğrunda aramsız oyunlar, respublikamızda bilavasitə hakimiyyətdə olanlar bu tarixi faciənin törədilməsinə, Xocalını xilas etmək üçün real imkanların olmasına baxmayaraq, uzun müddət düşmən mühasirəsində taleyinə buraxılmış, günahsız əhali qəsdən qırğına buraxılmış vətəndaşlarımızın kömək çağırışlarına biganəlik göstərilib. Erməni faşizminin əsl simasını bir daha ortaya qoyan və göstərən Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquq normalarına uyğun olaraq sivil dünya tərəfindən pislənilməlidir”.***

Ümummilli Lider ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada mədəni abidələrin məhv edilməsi və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı Soyqırımı Günü haqqında” Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır.

Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın havadarlarının dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı hadisələri müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytı yaradılmışdır. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” beynəlxalq kampaniyası başlanmışdır. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Xocalı şəhərində törədilmiş soyqırımı aktında iştirak etmiş şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması istiqamətində tədbirlər davam etdirilir.

### Xocalı: tarixin yaddaşı və müasir dövrün siyasi dərsləri

Xocalı üçün ədaləti Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu bərqərar etdi. 31 ildən sonra Xocalı qurbanlarını artıq başıuca, qalib ölkə kimi anırıq. Təqvim vərəqlərimizdə qara dairəyə alınmış o faciəvi tarixin, hüznlə, kədərlə, qəzəb hissi ilə andığımız o dəhşətli zamanın qisası alındı. Qəlbimizdə alışan qisas alovu ilə Xocalıda şəhid olan, əsir götürülərək minbir işgəncəyə məruz qalan soydaşlarımızın intiqamını alacağımıza and içmişdik. And içmişdik ki, qisasları qiyamətə qalmayacaq.

Səhifə ➡ 6

# Böyük Qayıdışın Xocalı səhifəsi




## Tarixi ədalətin bərpası, milli qürurun dirçəlişi

Xocalı Azərbaycan tarixində ən dərin iz buraxmış, qan yaddaşımızın simvoluna çevrilən qədim, əzəli yurd yerimizdir. Bu rayonda 1992-ci il fevralın 26-da baş vermiş soyqırımı xalqımızın təfəkküründə ağır, unudulmaz bir səhifə, milli həmrəyliyimizi möhkəmləndirən, mübarizə ruhumuzu gücləndirən hadisədir. Bu səbəbdən 30 ildən sonra Xocalıya qayıdış təkcə sakinlərin məskunlaşması deyil, həm də tarixi ədalətin və mənəvi dirçəlişin rəmzi kimi dəyərləndirilir. Bəli, Ümummilli Lider Heydər Əliyevin ***"İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır"*** ideyaları bu gün reallıq işığında parlayır. Ədalət mübarizəsinə qalxan xalqımız Ulu Öndərin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu ümumbəşəri cinayəti cəzasız qoymadı, öz yurdunu, öz torpağını döyüşərək, vuruşaraq geri aldı. Və 2023-cü il sentyabrın 19-20-də 23 saatlıq antiterror tədbirləri ilə tarixi ədaləti bərpa edərək öz ərazi bütövlüyünü, suverenliyini tam təmin edən, güclü, qüdrətli Azərbaycan Ümummilli Liderin də dediyi kimi, Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidəyə çevrildi. Ölkə başçısı fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə də antiterror əmliyyatı ilə Xocalıya ədalətin təmin edildiyini vurğuladı: ***"2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi".***



## Xocalı sevinir, xocalılılar gülür

Üçüncü ildir, azad nəfəs alır, doğmaları qoynunda hüzur tapır Xocalı. İllər sonra torpaq sahiblərinə qovuşur, ümidlər gerçəkliyə çevrilir. Bir zamanlar ağrı və kədəri xatırladan bu yurd yeri bu gün dirçəlişin, qürurun və Böyük Qayıdışın rəmzidir. Dağıdılmış evlərin yerində yeniləri ucalır, yollar çəkilir, məktəblər tikilir, "Ağıllı kənd" və müasir şəhər konsepsiyası tətbiq olunur. Xocalı sevinir, xocalılılar gülür.

Xocalı şəhərinə ilk köç 2024-cü il mayın 27-də həyata keçirilib. Bölgədə yaşayış üçün zəruri infrastruktur qurulub, sosial obyektlər istifadəyə verilib. Bütün bu kompleks infrastruktur quruculuğu çərçivəsində məcburi köçkünlərin geri dönüşü də mərhələli şəkildə uğurla həyata keçirilir. 2026-cı il yanvarın 19-na olan məlumata görə, Xocalı şəhəri və rayonun kəndlərinə 881 ailə – 3602 nəfər köçürülüb. Sevindirici haldır ki, artıq Ballıca, Xanyurdu, Təzəbinə, Şuşakənd, Badara, Seyidbəyli, Daşbulaq kəndlərində həyat yenidən canlanır. Dövlət başçısının fevralın 25-də baş tutan növbəti səfəri Xocalı rayonunun Xanabad kəndinin yeni görkəminə qovuşması, xanabadlılara sevinc müjdəsinin verilməsi ilə yadda qaldı. Bir neçə gün əvvəl 38 ailə – 154 nəfər kəndə qayıdıb. Sakinlərin yaşayış şəraitinin, firavanlığının təmini istiqamətində kompleks infrastruktur quruculuğu həyata keçirilib. Kənddə ölkə əhəmiyyətli XIII əsrə aid kilsə və IX əsrə aid "Aslan qalası" memarlıq abidələri var. Bu da Xanabadın Xocalı və ümumilikdə, Qarabağ, Azərbaycan üçün böyük tarixi əhəmiyyət daşıdığını deməyə əsas verir.

Xocalının işğaldan azad olunması ilə həm tarixi ədalət bərpa olunub, həm də vandalizmə məruz qalan şəhərimizə dair həqiqətlərin tam əyani şəkildə dünyaya çatdırılmasına daha geniş imkanlar açılıb. Belə ki, 2024-cü il fevralın 21-də Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) aparılan əsaslı bərpa-quruculuq işləri çərçivəsində həyata keçirilən qazıntı zamanı kütləvi şəkildə basdırılmış insan qalıqları aşkarlanıb. Bu və digər çoxsaylı digər faktlar sübut edir ki, azərbaycanlı əhaliyə qarşı amansız soyqırımı törədilib. Xocalı həqiqətlərini dünyaya bəyan edən, Xocalı qurbanlarının əziz xatirəsinin anıldığı müqəddəs məkanlardan biri də Xocalı Soyqırımı Memorialıdır. Memorial Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb və bu il fevralın 26-da dövlət başçısının iştirakı ilə açılışı olub. Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir. Xocalıya ədalət missiyası çərçivəsində görülən mühüm işlərin əks olunduğu bu məkan xalqımızın mübarizə əzminin, milli yaddaşın canlı ünvanı təsiri bağışlayır. Dövlət başçısı fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə də memorialın timsalında Azərbaycan xalqının əyilməz ruhunun göründüyünü vurğuladı: ***"Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, – yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, – 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı".***

Prezident İlham Əliyevin Xocalıya növbəti səfəri, Xocalıya Böyük Qayıdış həm də gələcək nəsillərə ötürülən mühüm mesajdır: bizik bu torpağın əsl sahibləri, biz həmrəy olsaq, dağıdılmış şəhərləri yenidən qura, məhv edilmiş həyatı yenidən başlada bilərik. Xocalıya qayıdış xatirədən gerçəkliyə, dağıntıdan dirçəlişə gedən yoldur. Əminliklə demək olar ki, Xocalının dirçəlişi tarixi ədalətin, yaddaşın, milli-mənəvi dəyərlərin bərpası baxımından Böyük Qayıdışın strateji mərhələlərindən biri kimi Azərbaycanın müasir tarixində öz yerini tutur və bundan sonra da daha bariz şəkildə tutacaq.

**"Şərq qapısı"**

## Ədalət bərpa olub, indi quruculuq vaxtıdır

Düşmənin xarabalığa çevirdiyi torpaqlar əsl sahibinə qovuşandan sonra gülüstana dönüb. Gerçəkləşən "Böyük Qayıdış" proqramı sayəsində yenidən qurulan şəhərlərə, kəndlərə qayıdan insanların sevinci qaysaq bağlamış yaralarımıza məlhəm olur və ədalətə inamımızı bir daha möhkəmləndirir. Ədalət gec də olsa, mütləq öz yerini tapır. İndi quruculuq vaxtıdır.

Fevralın 25-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd rayonunun Xocavənd kəndində və şəhərində görülmüş işlərlə tanış olublar.

Xocavənd kəndində yaşayış üçün lazımi infrastruktur qurulub, bir sıra sosialyönümlü işlər görülüb. 20 ailə öz evinə, ocağına qovuşub. Xocavənd şəhərində isə əsaslı təmirdən sonra fərdi evlərə 50 ailə köçürülüb. Məskunlaşan hər bir ailə çırağı yanan bir ocaq, Qarabağa qayıdan həyatdır. Prezidentin: ***"İndi Azərbaycan elə güclüdür, əminəm ki, bundan sonra heç kim bizə qarşı torpaq iddiası ilə çıxış edə bilməz"*** fikri torpağına qayıdan insanlara sevinc bəxş etməklə yanaşı, gələcəyə




ümid, işıq, əminlik yaradır: övladları, nəvələri indi bu torpaqlarda əvvəlkindən daha rahat, tam təhlükəsiz, firavan yaşaya biləcək, doğma torpaqlarda öz xoşbəxt gələcəklərini quracaqlar.

Xocavənd şəhər və kənd sakinləri ilə keçirilən səmimi görüş isə uzun müddət yaddaşlarda qalacaqdır. Ulu Öndərin vəsiyyətini yerinə yetirən ölkə başçısına minnətdarlıqlarını bildirən sakinlər doğma yurda qayıdışın sevincini bölüşüblər. İnsanların mehribanlıqla dövlət başçısını və ailə üzvlərini qarşılaması, dövlət başçısının uşaqdan tutmuş böyüyə hər kəsə diqqət ayırması, sakinlərin birinci xanıma sevgisi çəkilən fotolarda əbədiləşdi. Səmimi ortamda keçən görüşdə dövlət başçısı təndir çörəyinin dadına da baxdı, uşaqlara nəvaziş göstərdi. Ağsaqqal, ağbirçək xeyir-duası ilə sakinlər üçün yaradılan şəraitlə tanış oldu. ***"Artıq o dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır"***, – deyən ölkə başçısı illər sonra doğma yurdlarına qayıdan sakinlərə xoşbəxt həyat arzuladı.

Xatırladaq ki, ötən ilin sentyabrından bu günədək Xocavəndin 5 yaşayış məntəqəsinə, ümumilikdə, 1485 nəfər – 355 ailə qayıdıb. Uğurla icra edilən "Böyük Qayıdış" Qarabağa həm quruculuq, həm doğma nəfəs, yeni həyat gətirib. Qarabağı cənnətə döndərən ölkə başçısının da dediyi kimi: ***"Əsas odur ki, insanlar burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək".***

**✍ Ruhiyyə RƏSULOVA**

# "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, bu sahədə infrastrukturun təkmilləşdirilməsi, içməli su və suvarma suyu ilə təminatın daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

2. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya:

2.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təklifləri əsasında Tədbirlər Planının 1-ci hissəsində nəzərdə tutulan tədbirlər üzrə icra ediləcək layihələrin siyahısını bir ay müddətində müəyyən etsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 21 fevral 2026-cı il*

# Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı

Azərbaycan Respublikası Prezidentinin
2026-cı il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir

| Sıra №-si | Tədbirin adı | İcraçı qurumlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **1. Suvarma üçün sudan səmərəli və qənaətli istifadənin təmin edilməsi** | | | |
| 1.1. | "Qaraçuq-1" nasos stansiyasının və nasos stansiyasından qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2030 |
| 1.2. | Culfa rayonu ərazisində Araz çayından qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2028 |
| 1.3. | Ordubad rayonu ərazisində Araz çayından və Gilançaydan qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 1.4. | Naxçıvançayın sol sahilində Babək rayonunun ərazisinə xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 1.5. | Naxçıvançayın sağ sahilində Babək rayonunun ərazisinə xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 1.6. | Sədərək rayonu ərazisində Araz çayından qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2030 |
| 1.7. | Əlincəçaydan və Bənəniyar su anbarından qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2030 |
| 1.8. | Şahbuz rayonu ərazisində əkin sahələrinin suvarılmasına xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2028 |
| 1.9. | Kəngərli rayonu ərazisində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2028 |
| 1.10. | Şərur rayonu ərazisində Araz çayından qidalanan nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2027-2029 |
| 1.11. | Şərur rayonu ərazisində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028-2030 |
| **2. İçməli su təchizatı sisteminin təkmilləşdirilməsi** | | | |
| 2.1. | Sədərək rayonunun Heydərabad qəsəbəsinin, Qaraağac və Sədərək kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 2.2. | Kəngərli rayonunun Qıvraq qəsəbəsi və Şahtaxtı kəndinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 2.3. | Kəngərli rayonunun Xok, Qabıllı, Qarabağlar və Yurdçu kəndlərinin içməli su təchizatı şəbəkəsinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| 2.4. | Ordubad şəhəri üzrə içməli sutəmizləyici qurğunun bərpası, Babək şəhəri üzrə içməli sutəmizləyici qurğunun tikintisi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2030 |
| 2.5. | İçməli su təchizatının yaxşılaşdırılması məqsədilə yeni subartezian quyularının qazılması və infrastrukturun təkmilləşdirilməsi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026-2029 |
| **3. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və deqradasiyasına, səhralaşmasına qarşı mübarizə** | | | |
| 3.1. | Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazisində qapalı suvarma və kollektor-drenaj şəbəkələri tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028-2030 |
| 3.2. | Naxçıvan şəhərinin Qaraxanbəyli və Tumbul kəndlərinin ərazisində kollektor-drenaj şəbəkələrinin tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028-2030 |
| 3.3. | Şərur rayonunun Püsyan, Tumaslı və Xanlıqlar kəndlərinin ərazisində kollektor-drenaj şəbəkələri tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028-2030 |

## Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 fevral tarixli 942 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla bu Sərəncamın əlavəsində göstərilən əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun layihə-smeta sənədlərinin hazırlanması, qazılması və əhalinin içməli su ilə təmin olunması üçün müvafiq tədbirlər görsün.

2. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 24 fevral 2026-cı il*

## Naxçıvan Muxtar Respublikasında subartezian quyularının qazılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısı

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli Sərəncamına Əlavə**

| Sıra №-si | Yaşayış məntəqələrinin adları |
|---|---|
| | **1. Babək rayonu** |
| 1.1. | Cəhri qəsəbəsi |
| 1.2. | Çeşməbasar kəndi |
| 1.3. | Didivar kəndi |
| 1.4. | Güznüt kəndi |
| 1.5. | Kültəpə kəndi |
| 1.6. | Qaraqala kəndi |
| 1.7. | Məzrə kəndi |
| 1.8. | Naxışnərgiz kəndi |
| 1.9. | Nəzərabad kəndi |
| 1.10 | Sirab kəndi |
| 1.11. | Yuxarı Uzunoba kəndi |
| | **2. Culfa rayonu** |
| 2.1. | Culfa şəhəri |
| 2.2. | Bənəniyar kəndi |
| 2.3. | Xoşkeşin kəndi |
| 2.4. | Kırna kəndi |
| 2.5. | Saltaq kəndi |
| 2.6. | Teyvaz kəndi |
| | **3. Kəngərli rayonu** |
| 3.1. | Qıvraq qəsəbəsi |
| 3.2. | Böyükdüz kəndi |
| 3.3. | Çalxanqala kəndi |
| 3.4. | Xok kəndi |
| 3.5. | Təzəkənd kəndi |
| 3.6. | Yeni Kərki kəndi |
| | **4. Ordubad rayonu** |
| 4.1. | Ağrı kəndi |
| 4.2. | Aşağı Əylis kəndi |
| 4.3. | Azadkənd kəndi |
| 4.4. | Dizə kəndi |
| 4.5. | Düylün kəndi |
| 4.6. | Xanağa kəndi |
| 4.7. | Yuxarı Əylis kəndi |
| | **5. Şahbuz rayonu** |
| 5.1. | Badamlı qəsəbəsi |
| 5.2. | Ayrınc kəndi |
| 5.3. | Külüs kəndi |
| 5.4. | Mərəlik kəndi |
| 5.5. | Şada kəndi |
| 5.6. | Şahbuzkənd kəndi |
| | **6. Şərur rayonu** |
| 6.1. | Qaraburc kəndi |
| 6.2. | Şəhriyar kəndi |

## Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Naxçıvan Muxtar Respublikasına səfər edib



Fevralın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.



## Naxçıvanda Xocalı faciəsi qurbanlarının xatirəsi yad edilib



Fevralın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və ictimaiyyət nümayəndələri Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət ediblər.

Abidə önünə güllər qoyulub, Xocalıda soyqırıma məruz qalmış soydaşlarımızın xatirəsinə ehtiram ifadə olunub.



## Səlahiyyətli nümayəndə vətəndaşları qəbul edib

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların, o cümlədən şəhid ailələrinin üzvlərinin və müharibə iştirakçılarının müraciətləri dinlənilib. Vətəndaşlar, əsasən, sosial təminat, məşğulluq, əlillik, kommunal xidmətlər, həmçinin digər sosial məsələlərlə bağlı müraciətlər ediblər.

Səlahiyyətli nümayəndə qaldırılan məsələlərin hər birinin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.









# Naxçıvanda dövlət satınalmaları mövzusunda maarifləndirmə tədbiri keçirilib



Fevralın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən Naxçıvanda dövlət satınalmaları mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, eləcə də dövlət orqanları əməkdaşlarının iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev çıxış edərək bildirib ki, dövlət satınalmaları sahəsində həyata keçirilən islahatlar Prezident cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş uzunmüddətli inkişaf konsepsiyasının ayrılmaz tərkib hissəsidir. Son illər dövlət satınalmaları sahəsində qanunvericilik bazası müasirləşdirilərək normativ-hüquqi mexanizmlər təkmilləşdirilib, elektron satınalma sisteminin tətbiqi genişləndirilərək institusional nəzarət daha da gücləndirilib. Eyni zamanda elektron satınalma platformalarının tətbiqi prosedurların operativliyini və əlçatanlığını artırmaqla yanaşı, şəffaflıq və hesabatlılıq səviyyəsini yüksəldərək bütün sahibkarlıq subyektləri üçün bərabər rəqabət mühiti formalaşdırıb.

Baş nazir qeyd edib ki, satınalma sistemində institusional möhkəmləndirmə gücləndirilərək prosedurların keyfiyyəti yüksəldilib, əsassız nağdların sayı azaldılıb, şəffaflıq səviyyəsi əhəmiyyətli dərəcədə artıb. 2025-ci ildə Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, 1463 satınalma proseduru üzrə 305,4 milyon manat məbləğində satınalma həyata keçirilib. Satınalma metodları üzrə təhlillər göstərir ki, açıq tender üsulu ilə 282 satınalma üzrə 248,6 milyon manat, kotirovka sorğusu üsulu ilə 813 satınalma üzrə 14,6 milyon manat, 368 halda bir mənbədən satınalma üzrə 42,2 milyon manat məbləğində vəsait sərf olunub. Ləğv edilən müsabiqələrə də nəzər yetirən Baş nazir diqqətə çatdırıb ki, 2024-cü illə müqayisədə ötən il ləğv edilən satınalmalar 73,5 milyon manat təşkil edib. Yetərsay iştirak olmaması səbəbindən ləğv edilən satınalmaların sayı 33, məbləğində isə 51 faiz azalma qeydə alınıb. İddiaçıların şərtlərə uyğunsuzluğu ləğvlərinin sayında 74, məbləğində isə 70 faiz azalma baş verib. Bu da təsisatçıların peşəkarlıq səviyyəsinin yüksəldiyini göstərir. Satınalan təşkilatların nöqsanları səbəbindən ləğvlərin sayında 93, məbləğində isə 73 faiz azalma müşahidə olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov bildirib ki, 2024-cü ildən "Dövlət satınalmaları haqqında" yeni Qanunun tətbiqi iqtisadi münasibətlərdə şəffaflığı və rəqabəti artırmaqla yanaşı, yerli sahibkarlıq subyektlərinin bazara çıxış imkanlarını da genişləndirib. 2025-ci ildə ölkədə 19 min dövlət satınalma proseduru keçirilib. Satınalmaların ümumi maliyyə həcmi 10,8 milyard manat olub. Bu isə əvvəlki illə müqayisədə 10 faizədək artım deməkdir. Ötən il müsabiqələr üzrə orta iştirakçı sayının 3,5 olması isə rəqabətli mühitin gücləndiyini və sahibkarlıq subyektlərinin satınalma proseslərinə marağının artdığını göstərir.



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın Təfsilatlı Tədbirlər Planı çərçivəsində agentlik tərəfindən həyata keçirilən tədbirlərə də nəzər salan agentliyin sədri vurğulayıb ki, dövlət satınalmalarının vahid internet portalına inteqrasiyası ilə bağlı təkliflər hazırlanıb və müzakirələr aparılıb. Eyni zamanda 2023-cü il ərzində satınalma sahəsində şəffaflığın və peşəkarlığın artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşları və satınalan təşkilatlar üçün təlimlər keçirilib, portalın istifadəsi, eləcə də yeni qanunun tətbiqi üzrə praktiki izahlar verilib. Görülmüş bu tədbirlər nəticəsində 2024-cü ildən etibarən muxtar respublikada həyata keçirilən bütün elektron dövlət satınalmalarının vahid platforma üzərindən icrası tam təmin olunub.

Tədbirdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı tərəfindən yeni satınalma qaydaları ilə bağlı təlim keçirilib. İştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

## Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin mart ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu qrafiki

| S/n | Qəbulu keçirilən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri** Süleyman Neymətov | Şərur | 02.03.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev | Sədərək | 05.03.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Hüseyn Səfərov | Culfa | 12.03.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri** Kazım Hüseynəliyev | Şahbuz | 12.03.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Babək | 03.03.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Elxan Nəcəfov | Şərur | 17.03.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Fərid Bağırzadə | Kəngərli | 05.03.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Azər Məmmədrəhimov | Şərur | 13.03.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov | Şahbuz | 12.03.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Həsən Seyidov | Sədərək | 13.03.2026 |
| 11. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Ordubad | 12.03.2026 |
| 12. | **Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri** Səfərəli Nəsirov | Culfa | 19.03.2026 |
| 13. | **"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən** Nihad Qurbanov | Ordubad | 12.03.2026 |
| 14. | **Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən** Müslüm Cabbarzadə | Kəngərli | 12.03.2026 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 11$^{00}$-da başlayır.

# Naxçıvanda ümumi gücü 50 MVt olan günəş elektrik stansiyaları layihələri üzrə müqavilələr imzalanıb



Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov, "AzərEnerji" ASC, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, "Azerbaijan Green Energy Company" (AGEC), "CEI Nakhchivan" MMC, "Nobel Energy" və "Enerso" MMC-nin rəhbər şəxslərinin iştirakı ilə görüş keçirilib.

Görüşdə energetika naziri Pərviz Şahbazov deyib ki, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin gücləndirilməsi, davamlı sosial-iqtisadi inkişafının sürətləndirilməsi və onun regional enerji istehsalı və ixrac mərkəzinə çevrilməsi məqsədilə bərpa olunan enerji mənbələrinin geniş tətbiqi dövlət başçısının strateji kursunda prioritet istiqamətlərdən biridir: "Hazırda Naxçıvanda bərpa olunan enerji mənbələrinin payı elektrik enerjisinin quraşdırılmış gücündə 44 faiz, istehsalında isə 36,4 faiz təşkil edir. Naxçıvanda bərpa olunan enerji sahəsində özəl investisiyanın ilk nümunələri olan, ümumi investisiya dəyəri 60 milyon manatdan çox təşkil edən "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyaları bölgədə "yaşıl inkişaf" modelinin formalaşmasına mühüm töhfə verəcəkdir".

Yekunda Azərbaycan Respublikası Hökuməti və "AzərEnerji" ASC ilə "CEI Nakhchivan" MMC arasında Naxçıvan Muxtar Respublikasında 25 MVt gücündə "Şəms 1" Günəş Elektrik Stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Həmçinin Azərbaycan Respublikası Hökuməti və "AzərEnerji" ASC ilə "Enerso" MMC arasında 25 MVt gücündə "Qərbi Üfüq" Günəş Elektrik Stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Şirkətlərlə stansiyalar üzrə investisiya müqavilələri Azərbaycan Respublikası Hökuməti adından energetika naziri Pərviz Şahbazov, enerji alqı-satqı və ötürücü şəbəkəyə qoşulma müqavilələri isə "AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev tərəfindən imzalanıb.

Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə, illik 122 milyon kVt/st elektrik enerjisi istehsalı gözlənilir ki, bu da 26 milyon kubmetr qaza qənaət edilməsinə, 57 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

# Xocalıya ədaləti təmin edən güclü lider və müzəffər Azərbaycan Ordusu

*(əvvəli 1-ci səhifədə)*

Andımızı, mənəvi və hüquqi öhdəliyimizi yerinə yetirdik. 2020-ci ilin Vətən müharibəsi həm də şəhidlərimiz qarşısında verdiyimiz o andın yerinə yetdiyi savaş kimi Azərbaycan tarixinə həkk olundu. Müzəffər Ordumuzun Ali Baş Komandanı, Prezident İlham Əliyevin 10 noyabrda verdiyi qələbə müjdəsindən sonra insanlar əllərində al-qırmızı qərənfillər Şəhidlər xiyabanına, Xocalı soyqırımının daşlaşmış əksi – "Ana harayı" abidəsinə, bölgələrimizdəki şəhid məzarlarına ziyarətə axışaraq "Ruhunuz şad olsun, Vətənimin şəhid övladları, artıq uğrunda can verdiyiniz ana torpağımız Qarabağ azadlığa qovuşub, Xocalıda qətl edilən günahsız insanların qanı yerdə qalmayıb..." – dedilər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 27 sentyabr 2020-ci il tarixdə başlayan, 44 gün davam edən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu. Bununla da ölkə özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Ata vəsiyyəti 30 il sonra reallığa çevrildi. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı zamanı tətbiq edilən uğurlu strategiya və ən müasir silahlardan istifadə nəticəsində ordumuzun bölmələri işğal altındakı əraziləri düşməndən təmizlədi. Düşmənin komanda-idarəetmə məntəqələri, raket və artilleriya vasitələri, döyüş texnikaları və təminatı sıradan çıxarıldı, düşmən faktiki olaraq iflic vəziyyətinə gətirildi.




Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gerçəkləşdirdi. 44 günlük əks-hücum əməliyyatları bizim böyük zəfərimizlə başa çatdı. Zəfərimizə mənəvi məna verən isə işğal altında olan torpaqlarımızın, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin döyüşlərlə azad edilməsi oldu. Müasir tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Bu müharibədən qalib çıxan xalqımız öz haqqı uğrunda əvvəldən axıra kimi ləyaqətlə, inamla mübarizə apardı. Bu qələbə respublikamızın nəinki Cənubi Qafqazda, həmçinin bütün dünyada da mövqelərini daha da möhkəmləndirdi, nüfuzunu yüksəltdi.

2023-cü ilin sentyabr ayında keçirilmiş birgünlük antiterror əməliyyatından sonra Xankəndidə, Xocalıda və digər tarixi torpaqlarımızda suverenliyimiz tam təmin olundu. Prezident İlham Əliyev dövlət başçısı seçilməsinin 20 ilinin tamamında – 2023-cü il 15 oktyabr tarixdə Xocalıda Azərbaycan Bayrağını ucaltmaqla bütün dünya azərbaycanlılarına sonsuz sevinc və qürur hissi yaşatdı.

### Xocalıya həyat gətirdik!

Soyqırımı şəhəri kimi yaddaşımızda qalan Xocalı indi yenidən dirçəlir. Bu şəhərin küçələrindən yenə də uşaq səsləri, evlərdən şənlik sədası gəlir, toy-büsat qurulur. Prezident İlham Əliyev antiterror əməliyyatından dərhal sonra, ilk növbədə, Xocalının bərpa edilməsi ilə bağlı xüsusi tapşırıq verdi və tapşırıq uğurla yerinə yetirildi. Xocalı rayonunun inzibati mərkəzi olan Xocalı şəhərinin Baş planı hazırlanaraq mühüm işlərin həyata keçirilməsinə başlanıldı. Ağdam-Xankəndi-Şuşa marşrutu üzərində yerləşən bu şəhər davamlı inkişaf edən canlı regional mərkəz, strateji yaşayış məntəqəsi rolunu oynayacaq. Hava limanının mövcudluğu, şəhər ətrafından keçən respublika əhəmiyyətli avtomobil və dəmir yolları Xocalını həm işgüzar, həm də turizm məqsədləri üçün rahat təyinat nöqtəsinə çevirəcək. Sənaye, təhsil və mədəniyyət mərkəzlərinə yaxınlığı, zəngin tarixi irsə malik olması isə şəhərin müxtəlif istiqamətlərdə paralel inkişafına töhfə verəcək.

Xocalının "Böyük Qayıdış" proqramı çərçivəsində dirçəlişi, bərpası və yenidən qurulması bu torpaqları inkişaf etmiş bölgəyə çevirir. Bu gün Xocalıdan olan sakinlər ermənilərin törətdikləri dəhşətli fevral faciəsini unutmasalar da, öz doğma yurdlarına qayıtmağın sevincini yaşayırlar. Xocalıya qayıdış həm də xalqımızın dünya erməniliyi üzərində zəfəridir. Xocalıya qayıdış əcdadlarımızın ruhunun şad olmasıdır. Xocalı bu gün ən gözəl günlərini yaşayır. Bundan sonra şəhərin torpağının üstündə Xocalının doğma sakinləri addımlayacaqlar. Havasını da onlar udacaq, suyunu da köçkünlüyə son qoymuş insanlar içəcəklər. Burada üçrəngli Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Xocalının gözəlliyinin üstünə gözəllik gələcək.

### Xocalı ilə dərinləşən Vətən sevdası nəsildən-nəslə ötürülür

Xocalı faciəsi nə qədər acı olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi və bu gün tariximizə xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldı. Xalqımızın mübarizə əzmini möhkəmləndirdi, gənc nəslin vətənpərvərlik tərbiyəsini formalaşdırdı. Əminliklə deməli olar ki, həmin dövrdə qaçqın düşən uşaqlar, yaxınları faciə qurbanı olan gənclər sonralar həmin ərazilərin düşmən tapdağından azad edilməsində qəhrəmanlıq göstərdilər. Bu gün bütün bu tarixi faktların gələcək nəsillərə çatdırılması, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, milli dövlətçilik tariximizin bu təbəqə tərəfindən mənimsənilməsi diqqət mərkəzində saxlanılır.

Qürurla deyirik ki, artıq Vətənimiz Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkə kimi ildən-ilə daha da qüdrətlənir, iqtisadi gücünü artırır, siyasi arenadakı mövqeyini gücləndirir, gələcəyə sülh və əmin-amanlıq şəraitində irəliləyir. Bu gün hər bir Azərbaycan gənci də ölkəmizin gücünü, qüdrətini dərindən dərk etməli, onu daha da inkişaf etdirmək istiqamətində çalışmalıdır. Fəxrlə demək olar ki, dövlətimizin başçısı İlham Əliyevin liderliyində yetişən Azərbaycan gəncliyi bu missiyanı şərəflə daşıyacaq, Vətəninə, elinə qırılmaz tellərlə bağlanacaqdır.

**Məcid SEYİDOV**
*Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini icra edən, nazir müavini,*
*"Azərbaycan Vətən Müharibəsi və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı" İctimai Birliyinin sədri*

# İllər əvvəl verilən söz Böyük Qayıdışla gerçəkləşdirilir

*Onların arzuları yurdlarına bircə dəfə ayaq basıb, bir qurtum suyundan içib, havasını udmaq idi. İllər öz evində yaşayanlar üçün çox tez keçirdi, amma Xocalıdan çıxanda hər ailə üzvünü bir təpədə, meşələrin qarlı-boranlı künclərində itirən, əsir düşmüş yaxınının Şuşa həbsxanasındakı iniltisini hər gün iliklərində hiss edən insanlar üçün günün biri əsrə bərabər idi. Bu xalq öz Prezidentinə inandı və sonunda dünyaya səs salacaq bir zəfərə imza atdı. Zorla çıxarıldığımız torpaqlara zəfərlə qayıtdıq. İllərlə "Bir gün qayıdıb evimizin qapısını açarıq", – deyə sandıqda saxlanan açarlar bağlı qıfılları açdı. Hər günü min əsrə bərabər illərin zirvəsinə qələbə xəbəri taxt qurdu.*

*28 illik həsrət bitəndə, insanlar öz torpağına qədəm qoyanda, əyilib torpağı öpəndə ruhu şad oldu igid oğulların. Artıq üç ildir ki, Xocalıya qış gələndə üşümür uşaqlar, körpələr anasının qucağında rahat yatır, qız-gəlinin üzü gülür, uşaqlar məktəbə tələsir. Həyat yenidən başlayıb Xocalıda. Sinif otaqlarında əyləşib qürurlu tariximizi oxuyur uşaqlar.*

*Bugünkü müsahiblərimiz onlardan bir neçəsi, illər sonra öz yurduna dönən xocalılılardır.*

Xocalı şəhər bir nömrəli tam orta məktəbin direktoru, Xocalı sakini Nəvai Həsənov 20 ildən artıqdır ki, təhsil işçisidir. Bu gün müəllimlik kimi şərəfli peşəni öz doğma şəhərində davam etdirmək onun və buradakı bütün təhsil işçilərinin qürur mənbəyidir: "Xocalı uğrunda gedən döyüşlərdə hər kəs var gücü ilə döyüşsə də, səriştəsiz rəhbərliyin ucbatından müqəddəs torpağımızı itirdik. Həmin faciədə atamı, nənəmi və iki bibimi itirdik. Atamın cənazəsini həmin vaxt Ağdamda dəfn etsək də, bibilərim və nənəm hələ də itkindir. Xalqımıza qürurunu qaytaran Ali Baş Komandanımıza və ordumuza daim minnətdar olacağıq. Bu gün şəhidlərin ruhu şaddır. Çünki onların azad etdiyi torpaqlara həyat qayıdır. Xocalı şəhəri bərpa olunur, insanlar öz evinə geri dönür. Bu şəhər əvvəlki xoş günlərinə qovuşur. Dövlət başçısı məcburi köçkünlərlə görüşlərində hər zaman vurğulayırdı ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və budur, biz torpağımıza qayıtmışıq. Prezident İlham Əliyevin Azərbaycan xalqına söz verdiyi və sərkərdə qətiyyəti ilə cəmi 44 gün ərzində həyata keçirdiyi kimi, indi biz torpaqlarımıza qovuşmağın xoşbəxtliyini yaşayırıq".



Zəminə Məmmədova Xocalı şəhər tam orta məktəbinin müəllimidir. Qardaşı Kamil Xocalı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

"Həmin illərdə Xankəndidə yerləşən universitetdə təhsil alırdım. Təhsilimin bitməsinə cəmi iki il qalmış məcburi şəkildə oranı tərk etməli olduq. Həmin universitetin son tələbələri olduq. Artıq iki tədris ilidir ki, Qarabağ Universiteti qapılarını gənclərin üzünə açıb. Bizim yarımçıq qalan xəyallarımızı onlar tamamlayır. İllər öncə Xocalı deyəndə həm orada, o qanlı gecədə itirdiyimiz insanların acısını ürəyimizdə hiss edir, həm də düşmən tapdağında inləyən torpaqların səsini duyurduq. Bu gün isə həmin gün şəhid olan insanlarımızın məzarları önündə başı dik, alnıaçıq dayanırıq. Çünki Vətən torpağı azaddır. Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Bir müəllim kimi qürurluyam, biz artıq öz torpağımızda uşaqlarımıza şanlı tariximizi öyrədirik. Hər səhər Xocalıda doğulan Günəşi görəndə, Vətənin bu gözəl guşəsinin havasını ciyərlərimə çəkəndə şükür edirəm Tanrıya. Ordumuza, Ali Baş Komandanımıza minnətdaram. Allah şəhidlərimizin ruhunu şad eləsin".



Raya Əbdulovanın həyat yoldaşı Xocalı döyüşlərində şəhid olub, oğlu itkin düşüb. O, qəlbində həm şəhid olan ömür yoldaşının, həm də hələ də soraqı gəlməyən oğlunun nisgilini daşıyır. O, Xocalıdan son çıxan ailələrdəndir. Xocalıya ilk qayıdan insanlardandır.

Onun söhbəti: "Hər tərəfdən mühasirəyə alınan şəhərin müdafiəsi çətinliklə aparılsa da, igid oğullar son qanına kimi döyüşməyə söz vermişdi. Yoldaşım da döyüşdə idi. Şəhər hər tərəfdən mühasirəyə alınmışdı. Çıxış ancaq hava yolu ilə idi. Xocalı şəhərindəki hava limanı Əlif Hacıyev kimi qəhrəmanların sayəsində qorunurdu. Qadın və qocaların, uşaqların şəhərdən çıxarılması üçün helikopterlər gəlsə də, sakinləri daşımağa yetmirdi. Torpaqlarımız işğalda olanda tək arzum bir də buraya qayıdıb dağdan-daşdan oğlumu soraqlamaq olub. Həmin gün gələndə, Xocalıda ucalan bayrağı görəndə hər bir döyüşçümüzə, Müzəffər Komandanımıza minnətdar olduq. Xocalıya qayıdan gün oğlumu harayladım, çağırdım dayanmadan. Amma dağ da, daş da, ucsuz-bucaqsız çöllər də susmuşdu. Səsim dağlara dəyib bir də özümə qayıdanda gördüm ki, lal olub onlar da 30 il öncəki faciəni görəndə. Qəlbimin yarası heç vaxt sağalmayacaq, bircə təsəllim var Xocalı azaddır və mən həyat yoldaşımla, oğlumla birgə yaşadığım evdəyəm. Onların xatirələrini yaşadıram. İki nəvə böyüdüb təsəlli tapıram".



***"Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"*** Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırdıqdan sonra müsahibələrinin birində Prezident İlham Əliyev yurdundan didərgin salınmış vətəndaşlarımızla bağlı kövrək şəkildə ifadə etdiyi bu fikirlərdə olduğu kimi onlar həm yurd həsrəti, həm də yaxınlarını itirmək həsrəti çəksələr də, dövlətimizin qayğıkeş əlini daim öz çiyinlərində hiss etdilər və bu onlara güc verdi. Sınmadılar, biz xalq olaraq qəbul etmədik torpağımızın işğalda olmağını, birləşdik, "dəmir yumruq" olub, şimşək kimi çaxıb düşmənin canına vəlvələ saldıq. Bu gün biz öz yurdumuza geri dönmüşük. Bundan sonra biz burada əbədi yaşayacağıq. Çünki biz bu torpağın əsl sahibləriyik.

**Ramiyə ƏKBƏROVA**

## Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib

Fevralın 26-sı saat 17[00]-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Faciənin ildönümü ilə əlaqədar muxtar respublikada nəqliyyatın və piyadaların hərəkəti 1 dəqiqəlik dayandırılıb, avtomobillər siqnal veriblər.

Qeyd edək ki, Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı ölkəmizin hər yerində, o cümlədən Naxçıvanda anım tədbirləri keçirilib.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin mart ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 18.03.2026, saat $11^{00}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 18.03.2026, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 13.03.2026, saat $16^{00}$, Şərur rayonu, Axaməd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 30.03.2026, saat $15^{00}$, Şərur rayonu, Xələc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 11.03.2026, saat $15^{00}$, Şərur rayonu, Ərəbyengicə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 12.03.2026, saat $10^{30}$, Şərur rayonu, Muğancıq-Müslüm Kənd Mərkəzi | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 13.03.2026, saat $15^{00}$, Şərur rayonu, Düdəngə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 05.03.2026, saat $14^{00}$, Şərur rayonu, Mahmudkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 13.03.2026, saat $15^{00}$, Şərur rayonu, Şəhriyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 05.03.2026, saat $15^{00}$, Şərur rayonu, Həmzəli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 18.03.2026, saat $15^{00}$, Şərur rayonu, Vərməziyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 17.03.2026, saat $14^{30}$, Şərur rayonu, Təzəkənd tam orta məktəbinin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 17.03.2026, saat $10^{30}$, Kəngərli rayonu, Qarabağlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qəmbərov Ramal Fərhad oğlu, 060-285-00-15 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 11.03.2026, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 16.03.2026, saat $14^{00}$, Kəngərli rayonu, Təzəkənd və Xıncab kənd sakinləri, Təzəkənd tam orta məktəbinin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 19.03.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 06.03.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 12.03.2026, saat $15^{00}$, Babək rayonu, Badaşqan kənd sakinləri, Yarımca Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 06.03.2026, saat $11^{00}$, Babək rayonu, Göynük Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 16.03.2026, saat $15^{00}$, Babək rayonu, Məmmədrza Dizə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 18.03.2026, saat $14^{00}$, Babək rayonu, Yuxarı Uzunoba Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 17.03.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 12.03.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 18.03.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 13.03.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 1 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 12.03.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 5 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 12.03.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, 56-cı məhəllə sakinləri ilə səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 18.03.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 6 saylı körpələr evi-uşaq bağçası binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 17.03.2026, saat $12^{00}$, Naxçıvan şəhəri, Şahmat Mərkəzi | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 16.03.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 10.03.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, 49-cu məhəllə sakinləri ilə səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 09.03.2026, saat $12^{00}$, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 10.03.2026, saat $11^{00}$, Şahbuz rayonu, Külüs Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 12.03.2026, saat $11^{00}$, Şahbuz rayonu, Yuxarı Qışlaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 06.03.2026, saat $16^{00}$, Şahbuz rayonu, Daylaqlı və Kiçikoba kənd sakinləri, Daylaqlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 12.03.2026, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18; 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 13.03.2026, saat $15^{00}$, Culfa rayonu, Şurud kəndi, Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası, saat $16^{00}$, Gal Kənd Mərkəzi | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 11.03.2026, saat $11^{00}$, Culfa rayonu, Kırna Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 12.03.2026, saat $10^{00}$, Culfa rayonu, Göydərə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 12.03.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 11.03.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>17.03.2026, saat $15^{00}$, Ordubad rayonu, Kotam Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43<br>Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 10.03.2026, saat $16^{00}$, Ordubad rayonu, Vənənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 05.03.2026, saat $11^{00}$, Ordubad rayonu, Dəstə kənd tam orta məktəbinin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Manaf qızı | 13.03.2026, saat $12^{00}$, Ordubad rayonu, Gilançay Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29 |

# Prezident İlham Əliyevin Sərəncamı Naxçıvanda içməli, suvarma su təminatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşmasına mühüm töhfə verəcək

## Naxçıvanda su ehtiyatlarının artırılması üçün yeni imkanlar yaradılır



Vüqar RƏHİMZADƏ
Milli Məclisin deputatı

"Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdə su ehtiyatlarından səmərəli istifadə edilməsi prioritet istiqamətlərdən birini təşkil edir. Ölkəmizin müxtəlif bölgələrində yeni su anbarlarının tikintisi, meliorasiya və irriqasiya sistemlərinin yenilənməsi, əhalinin keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm layihələr icra olunub. Su təhlükəsizliyinin gücləndirilməsi, kənd təsərrüfatının dayanıqlı inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması və ekoloji mühitin qorunması bu siyasətin əsas prioritetlərindəndir. Eyni zamanda su ehtiyatlarının idarəetmə mexanizmlərinin formalaşdırılması və rəqəmsal texnologiyaların tətbiqi sahəsində ardıcıl addımlar atılır".

Bu sözləri Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Şərq qapısı" qəzetinə müsahibəsində deyib.

Deputat bildirib ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Böyük əhəmiyyət kəsb edən bu Sərəncam Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda su ehtiyatlarının qorunması, mövcud resurslardan səmərəli və dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, həmçinin su təminatı infrastrukturunun müasirləşdirilməsi məqsədi daşıyır.

Vüqar Rəhimzadə vurğulayıb ki, təsdiq edilmiş Tədbirlər Planına əsasən Naxçıvanda içməli və suvarma su sistemlərinin yenilənməsi, itkilərin azaldılması, hidrotexniki qurğuların yenidən qurulması və əsaslı təmiri, nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması, içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması, içməli sutəmizləyici qurğuların tikintisi, yeni subartezian quyuların qazılması və infrastrukturun təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi üzrə texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması tapşırılıb.

Deputat qeyd edib ki, sənədin icrası nəticəsində Naxçıvanda əhalinin keyfiyyətli içməli suya çıxış imkanlarının daha da yaxşılaşdırılması, kənd təsərrüfatında məhsuldarlığın artması və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi təmin ediləcək. Su ehtiyatlarının səmərəli idarə olunması ekoloji tarazlığın qorunmasına da müsbət təsir göstərəcək. Bununla yanaşı, bu sahədə atılan addımlar Naxçıvanın sosial-iqtisadi inkişafına mühüm töhfə verəcək. Tədbirlər Planının həyata keçirilməsi aidiyyəti dövlət qurumları arasında koordinasiyalı fəaliyyətin təmin olunmasını nəzərdə tutur.

"Dövlətimizin başçısının imzaladığı bu Sərəncam su təhlükəsizliyinin gücləndirilməsi və dayanıqlı inkişaf strategiyasının ardıcıl şəkildə reallaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Ümumilikdə, imzalanan Sərəncam Azərbaycanın su ehtiyatlarının səmərəli və dayanıqlı idarə olunması istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin tərkib hissəsi olmaqla ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvanda su təhlükəsizliyinin daha etibarlı şəkildə təmin edilməsinə zəmin yaradır", – deyə Vüqar Rəhimzadə əlavə edib.

**Prezident İlham ƏLİYEV:** ***"Bizim məqsədimiz əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək".***

## Ölkə başçısının Naxçıvana etimadı: nəticələrin danışacağı mərhələ başlayır

Həm ötən həftə, həm də bu həftənin ikinci günündə ölkə başçısı İlham Əliyevin Naxçıvanla bağlı su təminatı istiqamətində qəbul etdiyi mühüm qərarlar muxtar respublikanın gələcək inkişafına hesablanmış strateji addımlar kimi dəyərləndirilməlidir. Uzun illərdir, Naxçıvanda həm içməli, həm də suvarma su problemi insanların gündəlik həyatını, kənd təsərrüfatının inkişafını və sosial rifahını birbaşa təsirləndirən əsas amillərdən biri olub. Bu baxımdan, imzalanan Sərəncam və təsdiqlənən Tədbirlər Planı, sadəcə, növbəti rəsmi sənəd deyil, Naxçıvan üçün illərlə yığılıb qalmış problemlərin həlli adına açılan real imkanlar paketidir.

Prezident İlham Əliyevin bu qərarları jurnalistlər, ekspertlər, kənd mülkiyyətçiləri və sadə vətəndaşlar tərəfindən böyük ümid və sevinclə qarşılandı. Sosial şəbəkələrdə yüzlərlə paylaşım, status və şərh bunu açıq şəkildə göstərdi. İnsanlar haqlı olaraq ümidlənirlər.

O insanlar ki:

*– tarlasına su verə bilməyən fermerdir;*

*– məhsulu günün altında yanıb gedən kəndlidir;*

*– illərlə içməli suya möhtac qalan ailələrdir.*

Təbii ki, iqlim dəyişikliklərinin, qlobal istiləşmənin artdığı müasir dövrdə bu problemlər Naxçıvandan da yan keçmirdi. Getdiyimiz kəndlərdə, apardığımız müşahidələrdə, sosial şəbəkələrdə insanların bu sahədəki narahatlıqlarını, illərlə yığılıb qalmış problemlərini açıq şəkildə görürdük. Uzun müddətdir, həm içməli, həm də suvarma su problemi Naxçıvanda sosial rifaha və kənd təsərrüfatının inkişafına ciddi təsir göstərirdi.

Məhz bu baxımdan ölkə başçısının su təminatı ilə bağlı imzaladığı sərəncamlar muxtar respublikanın illərlə yığılıb qalmış problemlərinin mərhələli həlli üçün real imkanlar yaradır. Ancaq burada xüsusilə bir həqiqəti də açıq demək lazımdır: Naxçıvanla bağlı əvvəlki illərdə də mühüm Dövlət proqramları qəbul edilib, Tədbirlər planları təsdiqlənib, maliyyə vəsaitləri ayrılıb. Təəssüf ki, bir sıra hallarda icra proseslərinin effektivliyi gözlənilən səviyyədə olmayıb və əldə olunan nəticələr cəmiyyətin gözləntilərini tam qarşılamayıb. Məhz buna görə də uzun müddət "Naxçıvanda heç nə dəyişmir" kimi fikirlər ictimai rəyə çevrilmişdi.

Blokada şəraitində yaşayan bir regionda müsbət dəyişikliklərin sədası daha güclü eşidilməli idi. Bunun obyektiv və subyektiv səbəbləri çoxdur. Artıq bu mərhələni geridə qoyaraq gələcəyə fokuslanmaq lazımdır. Gələcəyə köklənmək üçün isə ölkə başçısı Naxçıvana yeni fürsətlər açır:

*– 3 rayonda hidrotexniki qurğuların əsaslı təmiri;*

*– 7 ərazidə hidrotexniki qurğuların yenidən qurulması;*

*– 1 rayonda nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması;*

*– 3 rayonun kəndlərində içməli su təchizatı şəbəkəsinin qurulması;*

*– 1 içməli sutəmizləyici qurğunun bərpası;*

*– 1 içməli sutəmizləyici qurğunun tikintisi;*

*– 3 şəhər və rayonda qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi;*

*– əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 subartezian quyusunun qazılması nəzərdə tutulur.*

Göründüyü kimi, miqyas böyükdür, ayrılan vəsait böyükdür, gözlənti isə daha böyükdür.

Bu baxımdan, əsas çağırış budur: ötən illərdə müşahidə olunan çatışmazlıqlar bu dəfə təkrarlanmamalıdır. İcra mexanizmi peşəkar, şəffaf və koordinasiyalı qurulmalıdır. Ayrı-ayrı qurumların fəaliyyətində koordinasiyanın yetərsizliyi, məsuliyyət bölgüsünün aydın müəyyənləşdirilməməsi və nəticəyönümlü olmayan yanaşma bu proses üçün risk yarada bilər. Bu məsələdə mərkəzləşdirilmiş idarəetmə, sahəni yaxşı tanıyan mütəxəssislərdən ibarət peşəkar komanda və ictimai nəzarət mexanizmləri həlledici rol oynayır.

Bunu təkcə muxtar respublika rəhbərliyindən gözləmək olmaz. Hər birimiz – sadə vətəndaşdan tutmuş ən yüksək vəzifə sahibi olan məmura qədər bu prosesdə məsuliyyət daşıyırıq. Hamı muxtar respublika rəhbərliyinin ətrafında bir komanda kimi birləşərək səmimi, düzgün və vicdanla çalışmalıdır. Ən kiçik boşluq belə layihələrin icrasını ləngidə bilər. Ötən illərin təcrübəsi bunu açıq şəkildə göstərib.

Bir sözlə, Prezident İlham Əliyev Naxçıvanla bağlı imzaladığı Sərəncamla bir daha göstərdi ki, muxtar respublikaya güvənir, Naxçıvanın inkişafını dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab edir və bunun üçün real maliyyə resursları ayırır. Bu böyük etimaddır. Amma etimad, eyni zamanda böyük məsuliyyətdir. Prezident Naxçıvandan xoş sədalar eşitmək istəyir: real dəyişikliklər, real nəticələr, insanların həyatında hiss olunan fərqlər.

*Bir sözlə, Prezident İlham Əliyev Naxçıvanla bağlı imzaladığı Sərəncamla bir daha göstərdi ki, muxtar respublikaya güvənir, Naxçıvanın inkişafını dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab edir və bunun üçün real maliyyə resursları ayırır. Bu böyük etimaddır. Amma etimad, eyni zamanda böyük məsuliyyətdir. Prezident Naxçıvandan xoş sədalar eşitmək istəyir: real dəyişikliklər, real nəticələr, insanların həyatında hiss olunan fərqlər.*

Əminik ki, Naxçıvanın illərdir, ən ağrılı problemlərindən biri olan su təminatı məsələsi mərhələli şəkildə həllini tapacaq. İnsanlar susuzluqdan əziyyət çəkir, əkin sahələri su çatışmazlığından yanır, kənd təsərrüfatının potensialı tam reallaşa bilmir. Bu isə təkcə iqtisadi məsələ deyil, bu, sosial ədalət, həyat keyfiyyəti və insan ləyaqəti məsələsidir.

Ayrılan vəsait və təsdiqlənən Tədbirlər Planı bu problemləri aradan qaldırmaq üçün tarixi fürsətdir.

Bəli, artıq danışmaq yox, iş görmək vaxtıdır.

İnanırıq ki, real nəticələri tezliklə görəcəyik. Hər manat, hər qəpik yerində və şəffaf xərclənməlidir. Ayrılan vəsait Naxçıvanda yaşayan insanların həyat keyfiyyəti, sağlamlığı və gələcəyi üçündür.

Bu bir kəndin suya qovuşmasıdır, bir ailənin rahat nəfəs almasıdır, bir fermerin məhsulunu xilas etməsidir, bir gəncin doğma yurdundan köçməməsi üçün ümid tapmasıdır.

**Sara ƏZİMOVA**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Tədbirlər Planı nə vəd edir? Naxçıvanda su təminatı, gözləntilər və insan amili (ekspert rəyi)



**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

"Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nı təsdiq edən Sərəncam imzalayıb. Sərəncamda su resurslarının daha səmərəli idarə olunmasının təmin edilməsi, içməli su təminatının yaxşılaşdırılması və bu istiqamətdə icra olunacaq tədbirlərin koordinasiyasının gücləndirilməsi nəzərdə tutulur. Su resurslarından səmərəli istifadə əsas prioritet olaraq kənd təsərrüfatı üçün suvarma sistemlərinin, içməli su infrastrukturunun yenilənməsi və təkmilləşdirilməsi baxımından vacibdir. Kənd təsərrüfatının inkişafı Naxçıvanda iqtisadi məsələ ilə yanaşı, həm də sosial və strateji prioritetdir. Naxçıvan hazırda blokada vəziyyətində olduğu üçün yerli istehsalın təmin olunması xüsusi əhəmiyyət daşıyır. Məlumdur ki, muxtar respublikada əhalinin əsas hissəsi kənd yerlərində yaşayır və aqrar sahədə çalışır. Kənd təsərrüfatının gücləndirilməsi daxili tələbatın yerli məhsullar hesabına ödənilməsini təmin edəcək, yeni iş yerlərinin yaradılmasına təkan verəcək. Kənd təsərrüfatının xammal bazası emal sənayesinin inkişafını təmin etməklə süd, ət, meyvə-tərəvəz məhsullarının emalı əlavə dəyər yaradacaq və ixrac potensialını artıracaq.

Naxçıvanın davamlı su təminatı sahəsində qarşıda duran problemlərin həlli istiqamətində uzunmüddətli və konkret addımlar atmağa yönəldilən bu Sərəncam regionun sosial-iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət daşıyır".

Bu sözləri "Şərq qapısı" qəzetinə açıqlamasında Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Mehriban İmanova deyib.

O qeyd edib ki, qlobal istiləşmə, temperaturun yüksəlməsi və su ehtiyatlarının azalması kənd təsərrüfatı və əhalinin içməli su təminatı baxımından ciddi çağırışlar yaradır. Bu baxımdan, hidrotexniki qurğuların yenidən qurulması, suvarma və içməli su təchizatı infrastrukturunun təkmilləşdirilməsi, itkilərin azaldılması regionun sosial-iqtisadi sabitliyinə birbaşa təsir göstərən amillərdəndir.

Mehriban İmanova vurğulayıb ki, su ehtiyatlarının səmərəli idarə olunması təkcə texniki məsələ deyil, insanın həyat keyfiyyətinə birbaşa təsir edən amildir. Tədbirlər Planı məhz bu balansı qurmağa xidmət edir.

Bölgələrdə yaşayan təsərrüfat sahiblərinin əsas gözləntiləri bunlardır:

*– suvarma suyunun vaxtında və kifayət qədər verilməsi;*

*– su itkilərinin azaldılması, köhnə kanalların yenilənməsi;*

*– müasir suvarma texnologiyalarının (damcı, yağmurlama) tətbiqi;*

*– quraqlıq dövrlərində kənd təsərrüfatının qorunması;*

*– su təminatında ədalətli bölgü və fasiləsiz xidmət.*

Ekspertin sözlərinə görə, Sərəncamın mühüm cəhətlərindən biri su ehtiyatlarının idarə olunmasında müasir və innovativ yanaşmaların tətbiqinin prioritet kimi müəyyənləşdirilməsidir. Damcı suvarma, yağışyağdırma və digər mütərəqqi suvarma metodlarının təşviqi resurslardan səmərəli istifadəyə, torpaqların deqradasiyasının qarşısının alınmasına və su itkilərinin minimuma endirilməsinə imkan verəcək.

Təsdiq edilmiş Tədbirlər Planı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ilə məntiqi uyğunluq təşkil edir. Bu, dövlət siyasətində ardıcıllığın və sistemli yanaşmanın göstəricisidir.

"Hesab edirəm ki, bu Sərəncamın icrası Naxçıvanda su təhlükəsizliyinin möhkəmləndirilməsinə, əhalinin içməli su təminatının yaxşılaşdırılmasına, kənd təsərrüfatında məhsuldarlığın artmasına və ümumilikdə, regionun sosial rifahının yüksəlməsinə mühüm töhfə verəcək. Qlobal çağırışlar fonunda atılan bu addım Naxçıvanın dayanıqlı inkişafının təmin olunmasına xidmət edən strateji qərar kimi dəyərləndirilməlidir", – deyə Mehriban İmanova əlavə edib.



# Prezidentin Naxçıvanla bağlı Sərəncamı qlobal çağırışlar fonunda vahid sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır

**Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına dair həyata keçirdiyi siyasətdə Naxçıvan Muxtar Respublikası xüsusi yer alır. Son dövrlərdə muxtar respublikada bütün sahələr üzrə yeni keyfiyyətli yanaşmanın tətbiq olunması, əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində atılan mütərəqqi addımlar yeni geoiqtisadi reallıqlar çərçivəsində mühüm əhəmiyyət daşıyır. Fevralın 21-də dövlət başçısının müvafiq Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi Prezident İlham Əliyevin *"Naxçıvanla bağlı böyük planlarımız var"* ideyasına söykənən qlobal çağırışlar fonunda Azərbaycanın vahid sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır.**

## Kənd təsərrüfatının dayanıqlığı artacaq, sosial rifah yaxşılaşacaq

Bu gün ölkəmizin kənd təsərrüfatı sürətli inkişaf etmiş iqtisadi rayonlarından hesab olunan Naxçıvanda da əhalini və əkinçiləri ən çox narahat edən məqamlar sırasında içməli və suvarma suyunun tələbatı ödəməməsi öndə gəlir. Bu baxımdan, su ehtiyatlarının qorunması, onların səmərəli idarə olunması və əhalinin su təminatının daha da yaxşılaşdırılmasını özündə ehtiva edən yeni Tədbirlər Planı, birinci növbədə, qlobal çağırışlara əsaslanır. Nəzərə alsaq ki, muxtar respublikada il ərzində günəşli günlərin sayı daha çox, yağıntının miqdarı nisbətən az müşahidə edilir, o zaman dünyada istiləşmənin getdiyi hazırkı dönəmdə bu sahədə çətinliklərin yaranması qaçılmazdır. Mövcud vəziyyət, təbii ki, ilk növbədə, su anbarlarında, sututarlarda suyun kəskin surətdə aşağı düşməsinə, quyularda su çəkilmələrinə səbəb olur. Belə olan halda əkinçilikdə məhsuldarlıq aşağı düşür, ekoloji cəhətdən təmiz, təbii kənd təsərrüfatı məhsulu istehsalı xeyli zəifləyir.

Məhz təsdiq edilən yeni Tədbirlər Planında da əsas məqsəd mövcud vəziyyət nəzərə alınaraq innovativ yanaşma və metodlardan istifadə edilməklə dayanıqlı inkişafa nail olmaqdır. Bu xüsusda Əlincəçaydan və Bənəniyar su anbarından, Şərur, Kəngərli rayonları ərazilərində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması, Sədərək, Culfa rayonları ərazilərində Araz çayından, Ordubad rayonu ərazisində Araz çayından və Gilançaydan qidalanan hidrotexniki qurğuların əsaslı təmiri və digər infrastruktur layihələri müstəsna əhəmiyyət daşıyacaq.

Tədbirlər Planı həm icra müddəti, həm də qlobal məsələyə yanaşması və hədəfləri nöqteyi-nəzərdən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in reallaşdırılmasına da xidmət edəcək. Nəzərdə tutulan məsələlərin həllini tapması müasir sosial-iqtisadi infrastruktur quruculuğunun tərkib hissəsi kimi, ən yeni həyat standartlarına əsaslanan yüksək sosial rifahın formalaşdırılmasını hədəfləyir. Yəni qəbul edilən bütün qərar, verilən sərəncam və fərmanlar kimi, növbəti Sərəncamda da əsas amil Azərbaycan vətəndaşı, onun sağlam həyat tərzi və sosial rifahının təminatıdır. Bu məsələdə sosial rifahın yaxşılaşdırılması həm suvarma su infrastrukturunun yenidən qurulması, həm də içməli su təchizatı sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Suvarma suyunun yaxşılaşdırılması əhalinin ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarını əldə etməsinə, aqrar sahədə yeni təsərrüfatların qurulmasına geniş imkanlar açacaq.

Prezident İlham Əliyevin fevralın 24-də imzaladığı "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncamı ilə əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulub. Beləliklə hər iki Sərəncama uyğun olaraq rayon mərkəzləri və kəndlərdə yeni subartezian quyularının qazılması, içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması isə əhalinin ekoloji təhlükəsizliyinin təmin olunması, su mənbələrinin mühafizəsi və çirkab suların idarə olunmasına xidmət etməklə yüksək həyat standartlarının yaradılmasını şərtləndirəcək.

## Suvarma sistemlərinin yenilənməsi, itkilərin azaldılması və müasir texnologiyaların tətbiqi

Vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da məhz suvarma və içməli su təminatının yaxşılaşdırılması istiqamətində işlərin həyata keçirilməsi, layihələrin icrası nəzərdə tutulub. Proqramda qeyd olunur ki, kənd təsərrüfatına yararlı torpaqların su ilə təminatının yaxşılaşdırılması, təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi ilə torpaqlardan səmərəli istifadə olunacaq, müasir suvarma infrastrukturu formalaşdırılacaqdır. Eyni zamanda rayon mərkəzlərində və kəndlərdə içməli su təminatının artımı ilə bağlı tədbirlərin görülməsi də nəzərdə tutulub.

Prezidentin təsdiq etdiyi yeni Tədbirlər Planı isə konkret layihələri müəyyənləşdirməklə məhz muxtar respublikanın sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasına bilavasitə güclü təkan verəcək. Sərəncamın əsas məqsədləri sırasında su ehtiyatlarının qorunması, su təchizatı və suvarma sistemlərinin yenilənməsi, itkilərin azaldılması və müasir texnologiyaların tətbiqi də yer alır. Bu xüsusda əsas görüləcək işlərdən biri torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və deqradasiyasına, səhralaşmasına qarşı mübarizədir. Naxçıvan şəhərinin Qaraxanbəyli, Tumbul, Şərur rayonunun Püsyan, Tumaslı, Xanlıqlar və Kəngərli rayonunun Böyükdüz, Xok kəndləri ərazisində qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi əkinçiliyin təşviqinə yol açmaqla kənd təsərrüfatının dayanıqlığının artırılmasına xidmət edəcək. Məlum olduğu üzrə hazırda əkin sahələrinin suvarılması zamanı, əsasən, açıq kanallardan istifadə edilir. Təbii ki, bu da həm su israfına, həm də bəzi ərazilərdə su sızmaları nəticəsində torpaqların şoranlaşmasına və meliorativ vəziyyətin pisləşməsinə səbəb olur.

Tədbirlər Planı çərçivəsində qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi sayəsində su itkiləri minimuma enəcək, suyun əraziyə daha dəqiq və qənaətli şəkildə paylanması təmin ediləcək. Beləliklə həm su resurslarından səmərəli istifadə olunacaq, həm də torpağın münbitliyi qorunub saxlanılacaq. Bu da məhsuldarlığın artmasını şərtləndirəcək. Digər tərəfdən, səmərəli əkin və suvarma metodlarının tətbiqi də qlobal məsələnin həllində vacib faktordur. Bu baxımdan, kənd təsərrüfatı mütəxəssislərinin məsləhət gördüyü damcı üsulu qlobal su problemi ilə mübarizə baxımından özündə üstün keyfiyyətləri birləşdirir. Bu metodda suya qənaət olunmaqla daha az su ilə daha çox sahə suvarılır, torpaqda erroziya prosesi baş vermir, qrunt sularının səviyyəsi su itkiləri olmadığından dəyişməz qalır, torpaqlarda təkrar şoranlaşmanın qarşısı alınır, suvarma suyu birbaşa bitkinin kök sisteminə verildiyindən onun kökətrafı zonada bərabər şəkildə paylanması təmin edilir.

Suvarmada digər bir geniş istifadə edilən yağışyağdırma üsuludur ki, bu üsulla suvarmada torpaq qatı müntəzəm olaraq nəmlənir, suvarma avtomatlaşdırılır, torpaq deqradasiyasının qarşısı alınır, suvarmanın kiçik normalarla və tez-tez aparılması hesabına suvarma suyuna qənaət olunaraq becərilən bitkilərin məhsuldarlığı yüksəlir. Tədbirlər Planının icrası və sadaladığımız müasir əkin, suvarma metodlarından istifadə yaxın gələcəkdə muxtar respublikanın sosial-iqtisadi həyatında mühüm müsbət dəyişikliklərə yol açacaq.

Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə sudan səmərəli istifadə məsələsinin xüsusi gündəmə gətirilməsinin, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin də əsas məqsədi bu ümumbəşəri problemin yaxın gələcəkdə Azərbaycan üçün daha ağır nəticələrə yol açmasının qarşısını almaqdır. Əminliklə demək olar ki, "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın icrası qlobal çağırışlar fonunda Naxçıvanın dayanıqlı inkişafını təmin etməklə həm əhali rifahının yaxşılaşdırılmasına, həm də ölkə sosial-iqtisadi inkişaf strategiyasına mühüm töhfələr verəcək.

**Nail ƏSGƏROV**



# Naxçıvanda içməli su təminatında yeni mərhələ



Mübariz BAYRAMOV
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Ölkə başçısının Sərəncamı sosial rifaha aparan real yol xəritəsidir

Su həyatdır. Xüsusilə iqlim dəyişikliklərinin, qlobal istiləşmənin artdığı müasir dövrdə içməli su təhlükəsizliyi artıq təkcə kommunal məsələ deyil, milli təhlükəsizlik və sosial rifahın əsas göstəricilərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2026-cı il 24 fevral tarixli Sərəncamı Naxçıvan Muxtar Respublikasında içməli su probleminin həlli istiqamətində dövlətin iradəsini və strateji baxışını bir daha aydın şəkildə ortaya qoyur.

Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun layihə-smeta sənədləri hazırlanacaq, qazılacaq və həmin mənbələr vasitəsilə həmin əhalinin içməli su təminatı yaxşılaşdırılacaq. Bu təkcə texniki layihə deyil, regionun sosial dayanıqlığına, insanların sağlamlığına, kənd təsərrüfatının inkişafına yönəlmiş kompleks yanaşmadır.

### Strateji baxış: problemin səbəbi ilə mübarizə

Məlumdur ki, Naxçıvanın coğrafi mövqeyi, iqlim şəraiti və su mənbələrinin məhdudluğu su təminatı məsələsini daim həssas edib. Yerüstü su ehtiyatlarının azalması, mövsümi qurumalar, yağıntıların qeyri-bərabər paylanması kənd yerlərində içməli suya çıxışı çətinləşdirib. Dövlət başçısının təsdiqlədiyi 2026-2030-cu illəri əhatə edən Tədbirlər Planı məhz bu problemlərin sistemli şəkildə aradan qaldırılmasını hədəfləyir. Subartezian quyularının qazılması isə yeraltı su ehtiyatlarından səmərəli istifadə imkanlarını genişləndirir, mövcud su şəbəkələrinin yükünü azaldır və xüsusilə kənd əhalisinin dayanıqlı içməli su mənbəyi ilə təmin olunmasına şərait yaradır. Bu yanaşma, eyni zamanda su itkilərinin qarşısının alınması və resursların rasional istifadəsi baxımından da mühüm əhəmiyyət daşıyır.

### Sosial effekt: insan amili və həyat keyfiyyəti

İçməli su təminatı, bilavasitə, insan sağlamlığı, yaşayış mühiti və sosial rifahla bağlıdır. Bir çox kəndlərdə əhali uzun illərdir ki, mövsümi su qıtlığı ilə üzləşir, suyun keyfiyyəti və fasiləsizliyi ilə bağlı çətinliklər yaşayır. Yeni quyuların istifadəyə verilməsi ilə minlərlə ailənin gündəlik məişət şəraiti yaxşılaşacaq, sağlamlıq riskləri azalacaq, xüsusilə qadınların və yaşlı insanların məişət yükü yüngülləşəcək. Bununla yanaşı, su təminatının sabitləşməsi kənd təsərrüfatına da müsbət təsir göstərəcək. Kiçik təsərrüfat sahibləri, fermerlər və ailə təsərrüfatları üçün suya çıxışın yaxşılaşması məhsuldarlığın artmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və gəlirlərin yüksəlməsinə imkan yaradacaq. Bu isə regionda məşğulluğun və sosial rifahın yüksəlməsinə xidmət edir.



### İcra mexanizmi: məsuliyyət və əlaqələndirmə

Müvafiq Sərəncamın icrası Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə tapşırılıb və proses Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırılmaqla həyata keçiriləcək. Eyni zamanda 2020-ci ildə yaradılmış müvafiq komissiya layihələrin əlaqələndirilməsini təmin edəcək. Maliyyə və təşkilati məsələlərin həlli üçün Nazirlər Kabineti, Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi qarşısında konkret tapşırıqlar qoyulub.

Bu mexanizm göstərir ki, söhbət təkcə niyyət bəyanatından deyil, icrası təmin edilən, maliyyə ilə dəstəklənən real Dövlət Proqramından gedir. Layihələrin mərhələli icrası nəticəsində qısa müddətdə ilk nəticələrin əldə edilməsi gözlənilir.

### Dövlət siyasətində Naxçıvan amili

Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına dair siyasətində Naxçıvan xüsusi yer tutur. Son illərdə muxtar respublikada infrastrukturun yenilənməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsi ilə yanaşı, su təminatı məsələsi də prioritet istiqamətlərdən birinə çevrilib. Bu Sərəncam Naxçıvanın sosial-iqtisadi inkişafının uzunmüddətli strategiyasına uyğun olaraq atılan ardıcıl addımların davamıdır.

Nəticə etibarilə, Sərəncam Naxçıvanda içməli su təminatında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu addım təkcə bugünkü problemləri həll etmir, həm də gələcək nəsillər üçün dayanıqlı su təhlükəsizliyinin təməlini qoyur. Dövlətin vətəndaşa yönəlmiş siyasətinin real nəticələri məhz belə həyati layihələrdə öz əksini tapır.

## Prezident İlham Əliyevin Sərəncamı ilə Naxçıvanda içməli su təminatında genişmiqyaslı tədbirlər həyata keçiriləcək

**Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam muxtar respublikanın sosial-iqtisadi inkişafında mühüm mərhələnin əsasını qoyur. Dövlət başçısının bu qərarı su ehtiyatlarından səmərəli istifadənin təmin olunması, əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə və yaşayış məntəqələrinin davamlı inkişafına xidmət edir. Sərəncama əsasən 2026-2030-cu illər üçün nəzərdə tutulmuş Tədbirlər Planına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində içməli su ilə təminatın yaxşılaşdırılması məqsədilə 40 subartezian quyusunun qazılması nəzərdə tutulur. Bu çərçivədə əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsini əhatə edən mühüm infrastruktur layihələri həyata keçiriləcək.**




Məsələ ilə bağlı fikirlərini bölüşən iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımovun sözlərinə görə, subartezian quyularının qazılması, hər şeydən əvvəl, əhalinin rifah səviyyəsinin daha da yüksəldilməsinə yönəlmiş sosial əhəmiyyətli addımdır: "Bu tədbirlər aqrar sektorun inkişafına təkan verəcək, kommunal təminat sahəsində etibarlılığı gücləndirəcək və ölkənin sosial siyasətinin daha da möhkəmlənməsinə səbəb olacaqdır. Eyni zamanda kənd yaşayış məntəqələrinin məskunlaşma göstəricilərinin artması və əhalinin doğma yurd yerlərində qalmasının stimullaşdırılması baxımından da mühüm rol oynayacaq".

Cavadxan Qasımov subartezian quyularının qazılmasının içməli su təminatının yaxşılaşdırılması baxımından mühüm iqtisadi əhəmiyyət daşıdığını bildirib: "Yeraltı su mənbələrindən istifadə su təminatında sabitlik yaradır, əhalinin fasiləsiz və keyfiyyətli içməli suya çıxışını təmin edir. Bu isə həm sosial rifahın yüksəlməsinə, həm də uzunmüddətli iqtisadi dayanıqlığın formalaşmasına şərait yaradır. Təmiz içməli suyun təmin edilməsi su vasitəsilə yayılan xəstəliklərin azalmasına səbəb olur. Nəticədə, səhiyyə xərcləri azalır, əmək qabiliyyətinin itirilməsi halları minimuma enir və ümumi məhsuldarlıq artır. Sağlam əhali isə iqtisadi aktivliyin yüksəlməsinə və yerli istehsalın davamlı inkişafına müsbət təsir göstərir. Subartezian quyularının qazılması ailə büdcəsinə də əhəmiyyətli qənaət imkanı yaradır. Sakinlər əlavə su xərclərindən və uzaq məsafələrdən su daşımaq zərurətindən azad olurlar. Vaxt və əmək itkisi azalır ki, bu da insanların digər iqtisadi fəaliyyətlərə daha çox vaxt ayırmasına imkan verir. Xüsusilə kənd yerlərində bu amil məşğulluq səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərir".

Ekspertin sözlərinə görə, su infrastrukturunun yaxşılaşdırılması yaşayış məntəqələrinin investisiya cəlbediciliyini də artırır: "Əmlakın dəyəri yüksəlir, kiçik sahibkarlıq subyektləri üçün daha əlverişli mühit formalaşır və yerli büdcəyə daxilolmalar artır. Bu proses regionun ümumi iqtisadi inkişafına əlavə stimul verir. Bununla yanaşı, subartezian quyularından əldə olunan suyun kiçik təsərrüfatlarda və həyətyanı sahələrdə istifadəsi kənd təsərrüfatı məhsuldarlığının artmasına səbəb olur. Məhsuldarlığın yüksəlməsi fermer gəlirlərinin artmasına, eyni zamanda ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə müsbət təsir göstərir".

Ümumilikdə, subartezian quyularının qazılması ilkin mərhələdə investisiya tələb etsə də, uzunmüddətli perspektivdə sosial xərclərin azalması, iqtisadi fəallığın artması və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə özünü doğruldan, yüksək iqtisadi səmərə verən mühüm dövlət layihəsidir.

## Cəhri sakinləri dövlət başçısının Sərəncamı ilə bağlı sevinclərini "Şərq qapısı" qəzeti ilə bölüşüb

*Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair müvafiq Sərəncamına əsasən əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun qazılması və əhalinin içməli su ilə təmin olunması nəzərdə tutulur. Həmin yaşayış məntəqələri sırasında Babək rayonunun Cəhri qəsəbəsi də yer alır. Dövlət başçısının müvafiq Sərəncamı ilə bağlı qəsəbə sakinləri öz təəssüratlarını qəzetimizlə bölüşdü.*

Qəsəbə sakini Ayşən Cavadova bildirdi: "Uzun müddətdir ki, suvarmada və məişətdə su çatışmazlığından əziyyət çəkirik. Ölkə başçısının muxtar respublikada subartezian quyularının qazılması ilə bağlı Sərəncamı biz sakinləri çox sevindirdi. İndi qəsəbəmizdə subartezian quyuları qazılacaq, su xətləri çəkiləcək. Artıq torpaqlarımız daha da canlanacaq və məhsuldarlığımız artacaq. Bu qayğıya görə dövlətimizə minnətdarıq".



Cəhri qəsəbə bələdiyyəsinin müavini, qəsəbə sakini Oruc Səfərov:



"Cəhri qəsəbəsinin içməli su ilə təmin olunması üçün son vaxtlar mühüm işlər həyata keçirilirdi. Bu işlərdən biri də qəsəbə ilə Payız kəndi arasında olan ərazidə, Cəhri vadisinin yatağında yeni subartezian quyusunun qazılmasıdır. Həmin quyu hazır olduqdan sonra su xəttinə qoşulacaq. Görülən bu işlər əhalinin su tələbatına olan ehtiyacının bir qismini ödəyəcək. Bu subartezian quyuları üzrə aparılacaq qazıntı işləri yekunlaşdıqda əhalinin su ehtiyacı tamamilə ödəniləcək. Qəsəbə bələdiyyəsinin əməkdaşı kimi görüləcək işlərə görə dövlətimizə minnətdarlığımızı bildiririk".

Qəsəbə sakini Şərafəddin Fərəcov deyir: "Cəhri qəsəbəsində çoxdandır ki, vətəndaşların su problemi var idi. Dövlət başçısının müvafiq Sərəncamı ilə muxtar respublikanın digər kənd və qəsəbələri ilə yanaşı, Cəhri qəsəbəsində də subartezian quyuları qazılacaq və su xətləri çəkiləcək. Bundan əvvəl qəsəbə öz su təminatını hazırda əksəriyyətinin yararsız olduğu bulaqlardan əldə edirdi. Sakinlər buna görə su təminatından əziyyət çəkirdi. Muxtar respublikamıza göstərilən diqqət və qayğıya görə dövlət başçımıza öz minnətdarlığımızı bildiririk".



Səmayə RƏSULOVA

# Prezidentin təsdiq etdiyi yeni Tədbirlər Planı Naxçıvanın dayanıqlı inkişafına xidmət edəcək



**Canməmməd CANMƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” muxtar respublikanın sosial-iqtisadi inkişafında mühüm mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Qəbul edilən sənəd su ehtiyatlarının qorunması, onların səmərəli idarə olunması və əhalinin su təminatının daha da yaxşılaşdırılması baxımından böyük əhəmiyyət daşıyır”.

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Canməmməd Canməmmədov bildirib.

Deputat qeyd edib ki, Naxçıvan Muxtar Respublikası təbii-iqlim şəraitinə görə su ehtiyatları məhdud olan regionlardan biridir. Bu səbəbdən mövcud su resurslarından səmərəli istifadə, yeni su mənbələrinin cəlb olunması və müasir infrastrukturun yaradılması dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.

Canməmməd Canməmmədov vurğulayıb ki, son illər cənab Prezidentin Naxçıvanın inkişafına göstərdiyi xüsusi diqqət və qayğı regionun bütün sahələrində olduğu kimi su təsərrüfatı sisteminin modernləşdirilməsində də mühüm rol oynayır. Dövlət başçısının təşəbbüsü ilə muxtar respublikada yeni su layihələri həyata keçirilmiş, suvarma sistemləri yenilənmiş, içməli su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Bu siyasətin davamı olaraq təsdiq edilən yeni Tədbirlər Planı qarşıdakı illərdə su ehtiyatlarının daha səmərəli idarə olunmasına geniş imkanlar yaradacaq. Sənədə əsasən su anbarlarının və kanalların yenilənməsi, yeni su təchizatı layihələrinin həyata keçirilməsi, su itkilərinin azaldılması və müasir idarəetmə mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Tədbirlər Planında kənd təsərrüfatında sudan səmərəli istifadə məsələləri də xüsusi yer tutur. Müasir suvarma texnologiyalarının tətbiqi, damcı və yağmurlama üsullarının genişləndirilməsi məhsuldarlığın artmasına və su ehtiyatlarının qorunmasına xidmət edəcək.

Bununla yanaşı, ekoloji təhlükəsizliyin təmin olunması, su mənbələrinin mühafizəsi və çirkab suların idarə olunmasının təkmilləşdirilməsi də planın əsas istiqamətlərindəndir. Bu tədbirlər regionun təbii tarazlığının qorunmasına mühüm töhfə verəcək.

Deputatın sözlərinə görə, qəbul edilən Tədbirlər Planı Naxçıvanda su ehtiyatlarının idarə olunmasını yeni səviyyəyə qaldıracaq. Əhalinin içməli su təminatı yaxşılaşacaq, kənd təsərrüfatının inkişafı üçün daha geniş imkanlar yaranacaq və regionun sosial-iqtisadi inkişafı sürətlənəcək. Şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl dövlət siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası inkişafının yeni mərhələsinə qədəm qoyur.

# Naxçıvanın kənd mülkiyyətçiləri Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər

Son illərdə Azərbaycan Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Cənab İlham Əliyev tərəfindən “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” təsdiqlənib. Biz də bununla bağlı sakinlərin təəssüratlarını öyrəndik.

Babək rayonu, Zeynəddin kənd sakini Canbağış Mehdiyev bildirir ki, uzun illərdir, kənd təsərrüfatı ilə məşğuldur. O deyir ki, illər ərzində ən böyük çətinliyi su ilə bağlı problemlər olub: “Biz burada torpaqla böyümüşük, çörəyimizi də torpaqdan qazanırıq. Amma illərdir, su çatışmazlığı bizi çox əziyyətə salır. Bəzən su olmadığına görə əkinə çəkdiyimiz zəhmət yarımçıq qalır, məhsuldarlıq isə aşağı düşür. Ölkə başçısının Naxçıvanın su təminatının yaxşılaşdırılması ilə bağlı verdiyi qərar təkcə məni yox, bütün kənd sakinlərini sevindirib. Çünki bu qərar təsərrüfatçıların yükünü xeyli azaldacaq. Su problemi həll olunarsa, həm də təsərrüfatlarımız canlanar. Bu qərara görə Prezidentimizə minnətdarıq”.



O əlavə edir ki, kənd təsərrüfatı ilə məşğul olan insanların ən böyük arzusu torpağın məhsuldarlığı və zəhmətin qarşılığının alınmasıdır. Atılan bu addım isə həmin arzulara bir addım daha yaxınlaşdırır.

Kənd sakinlərindən Əliabbas Məmmədov bizimlə söhbətində vurğuladı ki, özü üzümçülük təsərrüfatı ilə məşğul olur. Kənd quraqlıq ərazidə yerləşir, illərdir, su problemi yaşayır: “İqlim şəraiti və az yağıntı səbəbindən yeraltı sular da çəkilib, uzun illərdir, susuzluqdan əziyyət çəkirik. Əlbəttə, suya qənaət hər birimizin borcudur. Ölkə başçımızın təsdiqlədiyi qərara əsasən Babəkdə hidroqurğular bərpa olunacaq, şəhərdə isə yeni içməli su qurğusu tikiləcək. Bu işlər suyumuzu yaxşılaşdıracaq, əkinçiliyə kömək edəcək və kəndimizin inkişafına təsir göstərəcək. Suvarmada ənənəvi üsullardan müasir, qənaətcil üsullara keçiləcək, bu da suyumuzu qorumağa və məhsulumuzu artırmağa imkan verəcək. Düşünürəm ki, su bol olarsa, əkinçiliyi də genişləndirə bilərik, torpaqlarımız daha məhsuldar olar. Cənab Prezidentin Naxçıvana göstərdiyi qayğı bizim həyatımıza birbaşa təsir edir. Minnətdarıq, cənab Prezident!”



Şamil Nuriyev deyir ki, kənddə su ilə bağlı çətinliklər illərdir, gündəlik həyatı əziyyətə salırdı. Amma indi dövlətimizin qayğısı sayəsində bu problem mərhələli şəkildə aradan qaldırılır. Yeni qərar bizə böyük rahatlıq verir. Artıq sudan fasiləsiz, təmənnasız və rahat istifadə edə biləcəyik. Bu həm ev işlərini görməyə kömək edəcək, həm də kənd təsərrüfatı ilə məşğul olan bizlərin rifahını artıracaq.



Qeyd edək ki, cənab Prezidentin Naxçıvana göstərdiyi davamlı qayğı burada yaşayan hər kəsin həyatına birbaşa təsir edir. Regionun inkişafı üçün atılan ardıcıl addımlar həm sosial rifahın yüksəlməsinə, həm də Naxçıvanın Azərbaycan iqtisadi-sosial xəritəsindəki mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır. Bu siyasət gələcək nəsillər üçün daha güclü, dayanıqlı və müasir bir Naxçıvanın formalaşmasına yönəlmiş strateji yanaşmanın bariz nümunəsidir.

# Naxçıvanda “yaşıl enerji”nin payı artır: yeni günəş elektrik stansiyaları enerji təhlükəsizliyini gücləndirəcək

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi enerji strategiyasına uyğun olaraq ölkədə bərpa olunan enerji mənbələrinin genişləndirilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Bu strategiyanın mühüm istiqamətlərindən biri də Naxçıvan Muxtar Respublikasında “yaşıl enerji” potensialının reallaşdırılması, muxtar respublikanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və davamlı sosial-iqtisadi inkişafının təmin olunmasıdır. Dövlət başçısı Naxçıvanın bərpa olunan enerji potensialını yüksək qiymətləndirərək deyib: ***“Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan coğrafi baxımdan da eyni regiondur. Onlar “yaşıl enerji zona”ları elan edilib. Burada çox böyük potensial var, həm də Günəş elektrik enerjisi baxımından”.***

### Naxçıvanın enerji təhlükəsizliyi üçün strateji xətt

Ölkə başçısının qarşıya qoyduğu vəzifələrin icrası çərçivəsində Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazovun iştirakı ilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasında bərpa olunan enerji mənbələrinin tətbiqi üzrə mövcud vəziyyət və perspektiv layihələr müzakirə olunub. Görüşdə “AzərEnerji” ASC, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, “Azerbaijan Green Energy Company” (AGEC), “CEI Nakhchivan” MMC, “Nobel Energy” və “Enerso” MMC-nin rəhbər şəxsləri iştirak ediblər. Görüşdə vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin gücləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafının sürətləndirilməsi və regionun gələcəkdə regional enerji istehsalı və ixrac mərkəzinə çevrilməsi dövlət başçısının strateji kursunda prioritet istiqamətlərdəndir.

Hazırda Naxçıvanda bərpa olunan enerji mənbələrinin payı elektrik enerjisinin quraşdırılmış gücündə 44 faiz, istehsalında isə 36,4 faiz təşkil edir. Bu göstəricilər muxtar respublikanın ölkədə “yaşıl enerji”yə keçid prosesində aparıcı regionlardan biri olduğunu göstərir.

### Günəş enerjisi: “yaşıl inkişaf” modelinə real töhfə

Naxçıvanda bərpa olunan enerji sahəsində özəl investisiyanın ilk nümunələri kimi həyata keçirilən “Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyaları bölgədə “yaşıl inkişaf” modelinin formalaşmasına mühüm töhfə verəcək. Bu layihələr çərçivəsində, ümumilikdə, 25 MVt gücündə iki günəş elektrik stansiyasının inşası nəzərdə tutulur. Layihələrin ümumi investisiya dəyəri 60 milyon manatdan çoxdur. Yeni stansiyaların istifadəyə verilməsi Naxçıvanın elektrik enerjisi istehsalında bərpa olunan mənbələrin payını daha da artıracaq, eyni zamanda muxtar respublikanın enerji balansında sabitliyi gücləndirəcək.

### Müqavilələr imzalandı: layihələr icra mərhələsinə keçir

Görüşün yekununda Azərbaycan Respublikası Hökuməti və “AzərEnerji” ASC ilə “CEI Nakhchivan” MMC arasında Naxçıvan Muxtar Respublikasında 25 MVt gücündə “Şəms 1” Günəş Elektrik Stansiyası layihəsi üzrə “İnvestisiya müqaviləsi”, “Enerji alqı-satqı müqaviləsi” və “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” imzalanıb. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti və “AzərEnerji” ASC ilə “Enerso” MMC arasında 25 MVt gücündə “Qərbi Üfüq” Günəş Elektrik Stansiyası layihəsi üzrə analoji müqavilələr imzalanıb. Bu sənədlər layihələrin hüquqi və institusional əsaslarını formalaşdırmaqla yanaşı, özəl sektorun enerji sektoruna cəlb olunmasının real mexanizmini yaradır.

### İqtisadi və ekoloji faydalar

Layihələrin reallaşması nəticəsində, ümumilikdə, illik 122 milyon kVt/st elektrik enerjisi istehsalı gözlənilir. Bu isə 26 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 57 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

Beləliklə, yeni günəş elektrik stansiyaları həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, həm də ətraf mühitin qorunmasına xidmət edəcək. Karbon emissiyalarının azaldılması Azərbaycanın iqlim dəyişmələri ilə mübarizə üzrə beynəlxalq öhdəliklərinə uyğun olaraq atılan mühüm addımlardan biridir.

### Naxçıvan “yaşıl enerji”nin regional mərkəzinə doğru

Mütəxəssislərin fikrincə, Naxçıvanın coğrafi mövqeyi və günəş enerjisi potensialı burada alternativ enerji mənbələrinin inkişafı üçün geniş imkanlar yaradır. Son illərdə həyata keçirilən layihələr göstərir ki, muxtar respublika gələcəkdə təkcə öz enerji tələbatını təmin edən deyil, həm də regional səviyyədə “yaşıl enerji” istehsalçısı kimi çıxış edə biləcək.

Bütövlükdə, Naxçıvanda bərpa olunan enerji layihələrinin genişlənməsi regionun iqtisadi imkanlarını artırmaqla yanaşı, yeni iş yerlərinin yaradılmasına, investisiya mühitinin yaxşılaşdırılmasına və ekoloji tarazlığın qorunmasına xidmət edir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq atılan bu addımlar Naxçıvanın dayanıqlı inkişaf modelinin formalaşmasında mühüm mərhələ kimi qiymətləndirilir.

**“Şərq qapısı”**



# I Türkoloji Qurultay



## Türk xalqlarının milli özünüdərkinin simvolu

*22 oktyabr 2025-ci ildə Prezident İlham Əliyev tərəfindən "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalandı. Qurultayın türk xalqlarının həyatında və inkişafındakı əhəmiyyətini xüsusi vurğulayan Sərəncamda deyilir: "Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır". Türk dünyasının tarixində, şübhəsiz, ən mühüm hadisələrdən biri olan I Türkoloji Qurultay 1926-cı il 26 fevral-6 mart tarixlərdə Bakı şəhərində keçirilmişdir. Bu qurultay həm elmi, həm siyasi cəhətdən olduqca böyük əhəmiyyət daşıyırdı. Burada türk xalqlarının bir çox ortaq elmi problemi, onların tarixi, mədəniyyəti müzakirə edilmişdir ki, onların içərisində ən əsası yeni əlifbaya keçid məsələsi idi.*

Qurultay türk xalqlarının tarixində ilk bu cür geniş miqyaslı tədbir idi və Azərbaycanın türkoloji mərkəzə çevrilməsinə imkan yaratdı. Həmçinin sonrakı dövrlərdə aparılan araşdırmalar üçün də bir mənbə rolunu oynadı. 131 nəfər nümayəndənin iştirak etdiyi qurultayda 17 iclas keçirildi və Türk dünyasının dilinə, tarixinə, etnogenezinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənildi. Bakının bu mötəbər elmi yığıncağa ev sahibliyi etməsi təsadüfi deyildi. Təbii ki, burada Bakının həm coğrafi mövqeyi, həm də o dövrdə Azərbaycanın SSRİ-nin digər türk dövlətlərinə nisbətən daha çox inkişaf etməsi əsas amil idi. Azərbaycan o dövrdə həm də Türk dünyasının intellektual mərkəzlərindən birinə çevrilmişdi. Lakin sovet dövləti üçün bunlardan daha vacibi siyasi səbəblər idi. "Orta Asiyada sovetlərə qarşı müqavimət hərəkatının davam etməsi, Bakıya türk meyillilərin, Türkiyəsevərlərin toplanması marağı, bolşevizmin qondarma demokratik baxışlarının buradan daha yaxşı nümayişi bu səbəblərin siyasi tərəfi kimi dəyərləndirilir".

I Türkoloji Qurultay türk xalqlarının inteqrasiyası, inkişafı, Türk dünyası birliyi üçün mühüm tədbir idi və çox böyük milli özünüdərk, milli dirçəliş mərhələsi kimi yadda qaldı. Qurultay həm də türk xalqlarının gələcəyinə yönəlmiş böyük ideyaların tribunası idi. Qurultayda iştirak edən görkəmli alimlər, dilçilər, tarixçilər və ictimai xadimlər ortaq bir məqsəd ətrafında birləşmişdilər: türk xalqlarının dilini, tarixini, mədəniyyətini elmi əsaslarla öyrənmək və gələcək nəsillərə sağlam bir miras ötürmək. Burada türk dillərinin, etnoqrafiyasının, tarixinin müxtəlif ən mühüm məsələləri dünyanın tanınmış türkoloqları tərəfindən müzakirə olundu və mühüm qərarlar qəbul edildi. Ortaq əlifba, ortaq ədəbi dil, terminologiya, orfoqrafiya, etnoqrafiya problemləri böyük diapazonda qoyuldu və onların o dövr üçün konkret həlli yolları müəyyən edildi. Bu böyük tədbirin təsiri ilə sonralar müxtəlif illərdə bənzər mövzularda konqreslər, konfranslar keçirildi.

I Bakı Türkoloji Qurultayında türk dillərinin yeddi böyük problemi müzakirə olundu: 1. Əlifba məsələsi; 2. İmla-orfoqrafiya problemi; 3. Termin məsələsi; 4. Tədris-metodika məsələsi; 5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; 7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.



Məlumdur ki, bu dövrdə SSRİ-nin türk xalqları ərəb əlifbasından istifadə edirdi. I Türkoloji Qurultayın ən mühüm tarixi qərarlarından biri latın əlifbasına keçid məsələsinin gündəmə gətirilməsi oldu. Qurultay bunu türk xalqlarının qarşısında duran əsas məsələ kimi qeyd edərək latın əlifbasının ərəb əlifbasına nisbətən üstünlüklərini göstərir, yeni əlifbaya keçid prosesinin necə həyata keçirilməsini xalqların öz öhdəsinə qoyurdu.

Əlifba məsələsinin gündəmə gəldiyi ilk dövrlərdən, hələ M.F.Axundovun əlifba layihələrini təqdim etdiyi vaxtdan ziyalılarımızın bir hissəsi ərəb əlifbasından imtina məsələsini qəbul etmirdilər və bunun xalqların öz keçmişindən, bu əlifba ilə yaranmış irsindən və digər türk xalqlarından ayrılması ilə nəticələnəcəyi qənaətində idilər. Lakin I Türkoloji Qurultay iştirakçıları bu qənaətdə idilər ki, ərəb əlifbası ilə çap olunan nəşrlər əhalinin çox kiçik bir hissəsi tərəfindən oxunur. Qarşıda savadı olmayan çoxmilyonluq kütlə durur və bu kütlə üçün həmin ədəbiyyat əlçatmazdır. Odur ki, bir ovuc ziyalını yox, elə həmin çoxmilyonluq kütləni düşünmək lazımdır.

Uzun müzakirələrdən sonra qurultay nümayəndələrinin gəldiyi ümumi nəticə bundan ibarət oldu ki, təklif olunan yeni latın əlifbası həm ərəb əlifbası, həm də onun islah olunmuş variantı ilə müqayisədə daha çox üstünlüklərə malikdir. Qurultayın 4 mart tarixli 13-cü iclasında əlifba məsələsi səsə qoyuldu. Bu tarixi səsvermə nəticəsində 101 nəfər latın əlifbası tərəfdarlarının təklifinə, 7 nəfər ərəb əlifbası tərəfdarlarının təklifinə səs verdi, 9 nəfər isə bitərəf qaldı. Bu, türk xalqlarının savadlanması, dünyaya inteqrasiyası və milli kimliyinin möhkəmlənməsi yolunda atılmış cəsarətli bir addım idi.

I Türkoloji Qurultayda müzakirə olunan mühüm məsələlər içərisində türk dillərinin araşdırılması və onların digər dil ailələri ilə əlaqələri, termin yaradıcılığı, türk dillərinin orfoqrafiyası da var idi. Bu mövzuda məruzələri dinləyən qurultay qərara aldı ki, müxtəlif türk dilləri və ləhcələrinin hərtərəfli araşdırılması məqsədilə onlara aid materiallar toplanaraq çap olunsun, eyni zamanda bu dillərə aid qrammatika kitabları və lüğətlər hazırlansın. Türk xalqlarının ləhcələri ilə bağlı o dövrə qədər aparılan tədqiqatlar sistemli olmadığı, yalnız bir ləhcəni əhatə etdiyi üçün qurultay iştirakçılarını qane etmirdi. Bunu B.Çobanzadənin qurultayın 27 fevral 1926-cı ildə keçirilən üçüncü iclasındakı məruzəsindən də görmək olar: "Türk ləhcələrinin tədqiqinə dair əsərlər türk ləhcələrinin qarşılıqlı münasibətlərini nümayiş etdirməyə və kifayət qədər işıqlandırmağa, bu ləhcələrin müqayisəli qrammatikasını təqdim etməyə qadir deyil. Şübhəsiz, indi fantastik düşüncələri bir kənara atmaq və ayrı-ayrılıqda hər bir türk ləhcəsinin öyrənilməsinə başlamaq, yaxud hansısa ləhcələr qrupuna dair müqayisəli tədqiqatların aparılması ilə məşğul olmaq daha məqsədəuyğun olardı. Hazırda Göytürkdən Osmanlı ləhcəsinə qədər ləhcələrin dili və tarixinin tədqiqi üçün ümumi yol tapmaq mümkünsüzdür".



Qurultay iştirakçıları tərəfindən türk dillərinin imla qaydaları müəyyən edilərkən belə bir qənaətə gəlinmişdir ki, onlar üçün alınmaların tələffüzə uyğun şəkildə yazılması daha uyğundur, çünki bu, əhalinin savadsız hissəsinin savadlanmasını asanlaşdırar. Həmçinin türk dilləri üçün orfoqrafiya lüğətlərinin yaradılması da zərurət kimi qarşıya qoyulurdu. Bu yanaşma dillərin tarixi köklərinə hörmətlə yanaşı, onların inkişafına da xidmət edirdi. Türk dillərində elmi terminologiya sistemi haqqında müzakirələr zamanı qeyd olunurdu ki, terminologiyanın əsası kimi dildə geniş yayılmış uyğun sözləri seçmək lazımdır. Əgər hər hansı bir dildə uyğun söz yoxdursa, bu zaman əcnəbi dillərdənsə, ən yaxşı mənbə kimi digər türk dilləri qruplarına müraciət etmək və onların söz bazasından istifadə etmək olar. Bu da mümkün olmadığı təqdirdə xalq tərəfindən mənimsənilmiş ərəb və fars terminlərini dilin qrammatik qaydalarına uyğunlaşdıraraq istifadə etmək lazımdır. Bu yanaşma bir daha göstərdi ki, Türk dünyası öz elmi problemlərinə kənardan deyil, öz daxilindən cavab tapmağa qadirdir. Qurultay tövsiyə edirdi ki, hətta Avropa mənşəli sözlər də yalnız kök halında qəbul olunaraq türk dillərinə məxsus şəkilçilər vasitəsilə dəyişdirilsin və dillərimizə uyğunlaşdırılsın.

Məlumdur ki, I Türkoloji Qurultayda təkcə dil və əlifba məsələləri qoyulmamışdır. Qurultay həm də türk xalqlarının ortaq elmi və mədəni dəyərlərini birləşdirmək məqsədini güdürdü. Burada türk xalqlarının tarixinin və mədəni irsinin araşdırılması məsələsi də geniş müzakirə edildi. SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, maddi mədəniyyət abidələri, folklor nümunələri, məişət həyatının öyrənilməsi və arxiv materiallarının çapı qurultay tərəfindən vacib hesab edildi.

Qurultayın elmi və tarixi əhəmiyyəti təkcə gəlinən nəticələrdə, qəbul edilən qətnamələrdə deyil, həm də onun yaratdığı intellektual və mənəvi ruhda idi. Alimlər, publisistlər və ictimai xadimlər burada yalnız dil və tarix məsələlərini deyil, milli özünüdərk və birliyə xidmət edən ideyaları müzakirə etmiş, gələcək nəsillər üçün əvəzsiz tövsiyələr vermişlər. Təəssüf ki, sonrakı illərdə bir çox qurultay iştirakçıları repressiyalara məruz qaldı, irəli sürülən ideyaların bir qismi yarımçıq qaldı. Lakin ideyalar susmadı. Onlar zamanın yaddaşında yaşadı və bu gün də Türk dünyasının elmi-mədəni inkişafına öz təsirini göstərməkdədir.

Əks-sədası uzun illər davam edən qurultay türk xalqlarının elmi, mədəni və mənəvi həyatında tamamilə yeni bir səhifə açdı. Qurultayda iştirak edən görkəmli alimlər, dilçilər, tarixçilər və ictimai xadimlər türk xalqlarının dilini, tarixini, mədəniyyətini elmi əsaslarla öyrənmək kimi ortaq bir məqsəd ətrafında birləşmişdilər. I Türkoloji Qurultay türk xalqlarının birliyinin, ortaq elmi düşüncəsinin və milli özünüdərkin simvoluna çevrildi. Bu qurultay sübut etdi ki, elm və mədəniyyət millətləri birləşdirən ən güclü körpüdür.

**Nuray ƏLİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru***

# Mən bu torpağın döyünən ürəyi, Ordubadın daşlaşmış sükutuyam

Mənə baxın... Amma bu dəfə gözlərinizlə yox, ruhunuzla baxın. Mən bir ağacdan daha çoxuyam. Mən Ordubadın sümükləşmiş yaddaşı, yerlə göy arasında qurulmuş canlı körpüyəm. Köküm bu torpağın ən dərin qatlarından, ulu babalarınızın dualarına qədər uzanır.

Nə qədərdir yaşım? Artıq saymağı tərgitmişəm. Mənim üçün zaman sizin bildiyiniz saatlarla, təqvimlərlə ölçülmür. Mən zamanı fəsillərin rəngi ilə, yanımdakı çayxanadan gələn armudu stəkanların cingiltisi ilə, bir də yanımda böyüyüb, qocalıb, dünyadan köçən insanların nəfəsi ilə ölçürəm.

Yanımdakı o qədim çayxanadan yüksələn səs-küyü eşidirsiniz? O səs-küy Ordubadın nəbzidir. Mənim yanımda gur çaylar axmır, amma mən köklərimlə yerin yeddi qat dərinliyindəki o buz kimi kəhrizlərin sükutunu dinləyirəm. O kəhrizlər mənim gizli damarlarımdır, torpağın altı ilə mənə min illik sirləri danışır onlar.

Siz o çayxanada armudu stəkanların cingiltisi ilə dərdləşəndə, mən yuxarıdan samovarın o həzin pıçıltısını dinləyirəm. O samovarın buğu mənim yarpaqlarıma dəyəndə elə bil, şəhərin bütün yorğunluğu mənim gövdəmə hopur. Mən o samovarın buğunda insanların ümidini, o stəkanların səsində isə həyatın davam etdiyini görürəm. Mən o doğma səslərlə yuxuya gedirəm, hər səhər çayçı ocağa çatanda ilk stəkanın cingiltisi ilə oyanıram...



Bəzən gecələr şəhər sükuta qərq olanda daşlarla söhbət edirəm. Ordubadın hər küçəsinin, hər darvazasının dilini bilirəm mən. Elə bu çayxana da mənim qəlbimin döyündüyü yerdir. Neçə nəsil gəldi, keçdi burdan? Kimlər o skamyalarda oturub dərdini mənə tökmədi ki? Kimlər mənim kölgəmdə sevdiyini gözləmədi?

Mən çox şey görmüşəm. Nə müharibələr, aclıqlar görmüşəm. İnsanların bir parça çörək üçün necə çırpındığını, şəhərin üzərinə çökmüş kədəri hiss etmişəm dəfələrlə. Amma mən həm də sevinci görmüşəm. Novruzun gəlişini, tonqalların alovunu, uşaqların şən qışqırıqlarını ilk mən qarşılamışam.

Mənim gövdəmdəki hər bir qırış bir xatirədir. Bir gəncin sevgilisinin adını qabığıma qazıdığı o anı da hələ unutmamışam, canım yansa da, susmuşdum. Çünki o, ölümsüzlük axtarırdı. İndi o gənc yoxdur, amma mən buradayam, o sevginin sirrini qabığımın altında saxlayıram.

Bəzən mənə elə gəlir ki, mən bu şəhərin ən tənha sakiniyəm. Çünki hər kəs gedir, mən qalıram. Külək vurduqca budaqlarım sızıldayır. Bu sızıltı nə qocalıqdandır, nə də həsrətdən. Mən bu torpağa o qədər bağlıyam ki, yerimdən tərpənə bilmirəm. Amma mən sizin pıçıltılarınızı, arzularınızı eşidirəm.

Ey yanımdan ötüb keçən yolçu! Bir anlıq dayan, mənim kölgəmdə dincəl. Hara qaçırsan? Ömür bir yarpağın budaqdan yerə düşməsi qədər qısadır. Mən əsrlərdir, buradayam və öyrəndiyim tək bir şey var: kökünə bağlı olmayanın gələcəyi yoxdur.

Məni qoruyun... Mən sizin keçmişinizəm. Mən qurusam, bu şəhərin ruhu yetim qalar. Mən bir ağacdan daha çoxuyam, diri bir tarixəm.

Qış gələndə, o sazaqlı küləklər budaqlarımı döyəndə mən üşümürəm qətiyyən. Bilirəm ki, bu, bir sınaqdır. Bilirəm ki, o qarın altında bahar yatıb, bir neçə aydan sonra yenidən o yaşıl, o möhtəşəm libasımı geyinəcəyəm. Ölüm mənim üçün yoxdur, ey insanlar. Mənim üçün,



sadəcə, yenilənmək, saflaşmaq var.

Nə qədər ki bu uca dağlar var, nə qədər ki, o çayxanada ocaq yanır, nə qədər ki torpağın altındakı o qədim kəhrizlərin nəfəsi kəsilməyib, mən də olacağam. Sizin uşaqlarınızın, nəvələrinizin də kölgəsində dincələcəyi o köhnə dost kimi burada duracağam.

Gedin. Dünyanın işlərinə qarışın, yaşayın, sevin, yaradın. Amma unutmayın. Mən burada, həmişəki yerimdə, o çayxananın yanında sizi gözləyəcəyəm. Nə zaman yorulsanız, nə zaman dünya sizi sıxsa, gəlin yanıma. Külək əsəndə yarpaqlarımın xışıltısına qulaq asın. O səsdə mən sizə babalarınızın salamını çatdırıram. O səsdə mən sizə sevgini, dözümü, ən əsası isə sadiqliyi pıçıldayıram. Torpağınıza, kökünüzə və özünüzə sadiq olmağı...

Mən bu torpağın döyünən ürəyi, Ordubadın daşlaşmış sükutuyam. Mən tarixin tozlu səhifəsi yox, bu torpağın hər zərrəsinə hopmuş nəfəsiyəm.

# Orucu nə pozar?



Ramazan ayı müsəlmanların həyatında yalnız aclıq və susuzluqla səciyyələnən bir zaman kəsiyi kimi dəyərləndirilmir. Bu müqəddəs ay zamanın axarında gizlənmiş mənəvi bir xəzinə, insanın öz nəfsi ilə sükut içində üz-üzə gəldiyi, daxili dünyasına boylandığı hicrətdir. Ramazan bizə sözlərimizin çəkisini, niyyətlərimizin saflığını və davranışlarımızın mahiyyətini yenidən tərəziyə qoymağı öyrədən ali bir mənəviyyat məktəbidir.

Lakin hər il bu mübarək ay qapımızı döyəndə, qəlbimizdəki hüzurla yanaşı, zehnimizdə müəyyən suallar da baş qaldırır. Gündəlik həyatın sürətlə axdığı, tibbi prosedurların və müasir vərdişlərin həyatımıza dərindən nüfuz etdiyi bir dövrdə orucun həm zahiri bütövlüyünü, həm də mənəvi nurunu necə qorumalıyıq? Orucu nəyin pozduğu, hansı əməllərin onu batil etdiyi və ya hansı davranışların orucu pozmasa da, onun savabını azaltdığı kimi məsələlər hər zaman aktuallığını qoruyur. Məhz bu incə məqamlara işıq salmaq, müasir dövrün suallarına mənəvi cavablar tapmaq üçün ilahiyyatçı Hacı Şahin İsmayılov ilə bu müqəddəs ayın hikmətləri ətrafında həmsöhbət olduq.

Hacı Şahin söhbətə orucun mahiyyətindən başlayaraq bildirir ki, insanların ən çox yanıldığı məqam orucu yalnız fiziki aclıq kimi dəyərləndirmələridir: "Oruc, sadəcə, sübh azanından axşam azanına qədər yemək-içməkdən çəkinmək sayılmır. Oruc insanın bütün varlığı ilə Allaha yönəlməsidir. Dilin orucu var, gözün orucu var, qulağın orucu var. Əgər insan ac qalır, amma dili ilə başqasını incidirsə, qeybət edirsə, yalan danışırsa, bu artıq orucun ruhuna ziddir".

İlahiyyatçı qeyd edir ki, fiqh baxımından orucu pozan hallar açıq şəkildə müəyyənləşdirilib və burada əsas meyar qəsd məsələsidir. "Əgər insan bilərəkdən yeyərsə, bilərəkdən su içərsə, bu, orucu pozur. Burada niyyət əsasdır. Amma insan oruclu olduğunu unudaraq yeyib-içərsə, bu halda orucu pozulmur. Belə bir şəxs xatırlayan kimi dərhal yeyib-içməyi dayandırmalı və orucuna davam etməlidir. Bu, Allahın insanlara olan mərhəmətinin təzahürüdür", – deyə o vurğulayır.

Zərərli vərdişlər mövzusuna toxunan Şahin İsmayılov bu məsələdə birmənalı mövqe ortaya qoyur: "Siqaret, qəlyan və digər bu qəbildən olan zərərli vərdişlər orucu pozur. Çünki bu vasitələrlə bədənə xarici maddə daxil olur və bu da yemək-içmək hökmündə qiymətləndirilir. İnsan "Mən ac qalmışam", – deyərək zərərli vərdişlərə davam edirsə, bu artıq orucun pozulması deməkdir. Hətta müasir dövrdə geniş yayılan elektron siqaretlər də istisna təşkil etmir və eyni dini hökmə tabedir".

Söhbət zamanı tibbi müdaxilələrlə bağlı məsələlərə də toxunan Hacı Şahin bildirir ki, bu sahədə insanların çoxlu sualları və bəzən də qorxuları var: "Qəbul edilən dərmanlar orucu pozur. Qida və enerji verən serumlar da orucu pozur. Amma sırf müalicə məqsədli, qida tərkibli olmayan iynələr əksər hallarda orucu pozmur. Qan vermək də orucu pozmur, sadəcə, insanı zəiflədə bilər. Əgər insan özünü çox halsız hiss edirsə, bu halda orucu davam etdirməkdə çətinlik yarana bilər".

İlahiyyatçı xəstə insanların vəziyyətinə xüsusi diqqət çəkir. Onun sözlərinə görə, İslam dini insanın sağlamlığını təhlükə altına atmağı tələb etmir. "Əgər oruc tutmaq insanın sağlamlığına ciddi zərər vurursa, bu halda oruc tutulmaya bilər. Belə insanlar sonradan qəza orucu tuturlar. Allah heç kəsə gücündən artıq yük yükləmir", – deyə Hacı Şahin bildirir.

Mənəvi davranışlarla bağlı məsələlərə toxunan din xadimi qeyd edir ki, yalan danışmaq, qeybət etmək, söyüş söymək, başqalarını incitmək orucu fiqhi baxımdan pozmasa da, onun savabını ciddi şəkildə azaldır: "İnsan bütün gün ac qalır, amma axşam iftar edəndə həmin orucdan heç nə qazanmaya bilər. Çünki gün ərzində başqalarının haqqına girib. Oruc insanı tərbiyə etməlidir. Əgər tərbiyə etmirsə, deməli, məqsəd tam yerinə yetməyib".

Hacının sözlərinə görə, əgər insan bilərəkdən orucunu pozarsa, bu artıq ciddi məsuliyyətdir. Belə hallarda təkcə qəza kifayət etmir, kəffarə də vacib olur. Bu hökmlər insanı qorxutmaq üçün yox, onu məsuliyyətə çağırmaq üçündür.

Söhbətin sonunda din xadimi Ramazan ayının əsas məqsədini bir daha xatırladır. "Oruc bizi daha səbirli, daha anlayışlı, daha mərhəmətli etməlidir. Əgər Ramazan bitəndən sonra da insan davranışlarını düzəldirsə, deməli, oruc öz təsirini göstərib. Oruc təkcə mədə ilə yox, həm də qəlblə tutulmalıdır", – deyə Şahin İsmayılov fikirlərini yekunlaşdırır.

Ramazan ayı ruhun öz sükutuna qayıdışı və qəlbin aynasını saflaşdırmaq üçün bizə bəxş edilən bənzərsiz bir fürsətdir.

Əslində, orucun fiziki sərhədlərini, onu nəyin pozub-pozmadığını bilmək bu böyük səfərin yalnız zahiri xəritəsidir. Bu müqəddəs yolçuluğun əsl mahiyyəti isə o aclığın hansı niyyətlə olunduğunda və o susuzluğun hansı ruhla daşındığında gizlidir. Orucun hər anını dərk etmək onu bir eşq və fədakarlıq imtahanı kimi yaşamaq Ramazanın əsl mənasına qovuşmaq deməkdir.

Elnurə CƏFƏROVA



## Naxçıvanda Heydər məscidi kompleksində iftar süfrəsi təşkil olunub

Naxçıvan şəhərində yerləşən Heydər məscidi kompleksində müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi təşkil olunub. İftar mərasimində qazilər və şəhid ailələri iştirak ediblər. Səmimi və mənəvi ab-havada keçən tədbirdə "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, Ramazan ayının fəzilətlərindən bəhs olunub. Mərasimdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Əli Orucov Ramazan ayının insanları mərhəmətə, xeyirxahlığa və həmrəyliyə səslədiyini bildirib. O vurğulayıb ki, müqəddəs ay yalnız oruc ibadəti ilə deyil, eyni zamanda mənəvi saflaşma, ehtiyacı olanlara diqqət və qayğı göstərilməsi ilə səciyyələnir. Qeyd olunub ki, bu cür tədbirlər cəmiyyət daxilində birlik və qarşılıqlı hörmət hisslərinin daha da möhkəmlənməsinə xidmət edir.

Sonda bildirilib ki, qazilər və şəhid ailələri üçün təşkil olunan belə iftar süfrələri onlara göstərilən ehtiramın bariz ifadəsidir.



✍ Ceyhun MƏMMƏDOV

# Sədərəyin Vəlidağ stansiyası Azərbaycanın qərbə çıxış nöqtəsi



**Naxçıvan üçün vacib nəqliyyat mərkəzlərindən biri olan Vəlidağ dəmiryolu stansiyasındayıq: burada relslər uzaqlara uzanan misralar kimi torpağın sinəsinə yazılıb sanki. Zəngəzur dəhlizinin bir hissəsi olan Vəlidağ yalnız qatarların gəlib-getdiyi bir məkan olmayıb – yolların, talelərin və ümidlərin kəsişdiyi canlı bir nöqtə olub: Azərbaycanın qərbə çıxış nöqtəsi. Burada hər rels bir hekayə danışır, səslənən fitlər hər bir ayrılığın və ya görüşün başlanğıcı olub. Keçmişdə səslənən hər qatar fitində indi bir həsrət qoxusu duyulur, stansiyada sanki yarımçıq qalan bir hekayə insanı cəlb edir. Əslində, bu hekayənin ilk sətirləri yazılıb artıq – Qars-İğdır-Dilucu layihəsi. Bu layihənin davamı olacaq Vəlidağ və Ordubad arasında mövcud olan 177 kilometrlik dəmir yolu xəttinin yenidən qurulması. Buradan keçəcək qatarlar təkcə Azərbaycan və Türkiyə arasında ticarət yükünü deyil, həm də insanların ümidini, illərdir, qoruyub saxladığı nisgilli arzusunu, istəyini daşıyacaq. Qlobal bazarların ehtiyacları bu relslərin “çiynində” daşınacaq, bu yol qlobal nəqliyyat və ticarət marşrutlarının əsas arteriyalarından birinə çevriləcək.**

“Yolların ürəyidir dəmir yolu stansiyası” deyirlər, bu stansiyada isə qatar fitləri eşidilmir. Relslər susub, sanki indi, sadəcə, pasın səssiz dili danışır. Relslərin arasından saralmış otlar boylanır, arabir yazın gəlişini sakit-sakit cücərən yaşıl otlarla özündə ehtiva edən təbiət geri qayıtmaq istəyir buraya, sanki insanın tərk etdiyi bu məkanı öz qucağına almağa çalışır. Uzaqlara uzanan dəmir yolu xətləri indi heç yerə aparmayan yollar kimi görünür Vəlidağda. Yarımçıq qalan ümidlər kimidir bu stansiya, skamyalar illərin yorğunluğunu çiyinlərində daşıyır sanki. Addımlarımız əks-səda verir, bir vaxtlar tələsik ayaqların döydüyü bu ərazidə, stansiyada indi yalnız küləyin yüngül toxunuşunu hiss edirik. Unutqan yaddaşın qırıq cümlələri kimi “Lokomotivin dayanacağı” yazılmış köhnə elan lövhəsinin solmuş hərfləri keçmişdən xəbər verir. Elə bil, stansiyanın özü də keçmişini xatırlayıb kövrəlir. Sədərək sakini Vəzir kişi deyir ki, bir vaxtlar burada görüşlər, ayrılıqlar var idi, gözləyən baxışlar var idi: “80-ci ildə hərbi xidmətdən qayıdarkən məni burada böyük coşqu ilə qarşıladılar. Ümumiyyətlə, hər bir sədərəkli bu stansiyadan istifadə edib. Bura insanları bir-birinə bağlayan körpü kimi idi: bu gün ayrılanlar sabah yenidən burada qovuşurdu. Bəzən uzun illər sonra doğma yurda qayıdanların ilk addımı da məhz stansiyadan başlayıb. Ona görə də Vəlidağ stansiyası yaddaşlarda yalnız bir stansiya kimi deyil, arzuların toplandığı bir məkan kimi qalıb”.

Bir vaxtlar qatar fitlərinin səmanı yarıb keçdiyi, Naxçıvan sakinlərinin yolunun düşdüyü Vəlidağ dəmir yolu stansiyası indi sükutun qoynundadır. Ayaq basanda insanı fərqli ab-havası ilə qarşılayır stansiya: bura təkcə insanların hüzn məkanı deyil, həm də yaddaşdır, keçmişin canlı şahididir. Bura sanki zamanın unudulmuş səhifəsinə çevrilib: gözləmə zalının divarlarında görünməyən xatirələr, relslərdə eşidilməyən səslər və daha nələr-nələr. Stansiya təkcə nəqliyyatın dayanmasını yox, həm də bir dövrün bitməsini xatırladır. Çünki stansiya işlədiyi vaxt ətrafda yaşayan insanlar həyatın ritmi ilə ayaqlaşır, qonaqlar gəlir, ticarət canlı



olurdu. Qatar dayanandan sanki yollar da yorulub susub. Sədərək sakini Talıb Mehdiyev deyir ki, Naxçıvandan gələn qatarın sonuncu stansiyası elə Vəlidağ stansiyasıdır: “Bu stansiyadan əvvəllər İrəvana da, Bakıya da, elə Naxçıvanın rayonlarına da gedib-gəlirdik. Zəngəzur yolu açılandan sonra Sədərəyin vəziyyəti daha yaxşı olacaq. Düşünürəm, Sədərək dünyaya açılan qapı olacaq. Bir vaxtlar burada insan əlindən yer olmurdu, şagirdlər də bəzən qatarla məktəbə ayaqüstə gedirdi. Arzulayardım ki, həmin o təmtəraqlı günlər yenə təkrar olunsun”.

Ümumiyyətlə, bu yol, bu stansiya bir vaxtlar öz səs-küyü, əhəmiyyəti ilə seçilib. Sədərək sakinləri deyir ki, Azərbaycanın qərbində olan sonuncu stansiya ilə bir vaxtlar Bakıya, İrəvana rahat şəkildə gediş-gəlişləri olub. Onlar əkdikləri məhsulları o zamanlar buradan keçən qatarlar vasitəsilə İrəvana aparır, orada satır, alver edirmişlər. Buradan bir qədər aralıda isə Arazdəyən stansiyası yerləşir, buna baxmayaraq, sakinlər daha çox Vəlidağ stansiyasından istifadə edirmişlər. Səbəbi isə buranın Sədərəyin bir addımlığında olmasıdır. “Biz uşaq olanda Sədərək ərazisindən keçən dəmiryolu hissəsində dururduq. Oradan keçən qatarları sayırdıq. Elə olurdu ki, gün ərzində 10-15 dəfə qatarlar gedirdi. Hər birinə 40-42 vaqon qoşulurdu. Bu vaqonlarla yüklər, ərzaq daşınırdı, ən çox yanacaq vaqonları qoşulurdu. Hamısı Bakıdan gəlib İrəvana gedirdi”, – deyir Həsən Rzayev. Burada yaşayan sakinlərin hər birinin xatirəsi var stansiya ilə bağlı.

Bu stansiya işləməsə də, yaddaşlarda hələ də hərəkətdədir. Relslərin metal cingiltisi, uzaqdan gələn qatarın uğultusu Vəlidağın ayrılmaz musiqisi olub, rənglənmiş skamyalar yorğun yolçuların sirlərini dinləyib, sanki talelərini çiyinlərində daşıyan yüz minlərlə insana qucaq açıb, bu stansiyalar qatarları yox, xatirələri yola salır.

Bura, sadəcə, nəqliyyat nöqtəsi yox, ayrılıqların hüznünü, görüşlərin sevincini və yolların sonsuzluğunu özündə birləşdirən bir həyat səhnəsi olub. Buradan keçən hər naxçıvanlı bu səhnənin kiçik də olsa, bir hissəsinə çevrilib. Burada yollar bitməyib, sadəcə, susub. Bir gün bu relslər yenidən cingildəyəcək, stansiya yenə insanlarla dolacaq. Vəlidağ isə hazırda sakit dayanıb. O getməyən qatarların, bitməyən yolların və unudulmayan xatirələrin səssiz qoruyucusudur. Bu stansiya, bu yollar təkcə daşdan, dəmirdən relsdən ibarət deyil, həm də bu yollar ayrılıqların kədəri, qovuşmaların ümididir. Bizim isə ümidimiz heç bir zaman tükənməyib, tezliklə bu yolları getmək arzusu ilə...



# Ruhumuzu isidən Od çərşənbəsi







Od çərşənbəsinin o müqəddəs alovu hər bir azərbaycanlının ruhunda nəsillərdən-nəsillərə ötürülən tarixin dərin qatlarının əks-sədasıdır.

Od təbiətin dörd əsas ünsüründən biri olmaqla ən qədim dövrlərdən etibarən türk dünyagörüşündə müqəddəs sayılan anlayışlardan biridir. Od çərşənbəsi Günəşə, oda və odu qoruyub saxlamaq inancına söykənərək formalaşıb. Qədim türk mifoloji təsəvvürlərinə görə, od insanlara Göy Tanrı tərəfindən bəxş edilib.

Bu gün təbiətin dörd ünsüründən ikincisi olan od öz hökmünü sürür, qışın son nəfəsini kəsərək torpağı və insan qəlbini isidir. Od çərşənbəsi ruhun qaranlıqdan çıxıb işığa, soyuqdan qopub istiyə can atdığı o andır ki, hər il qəlbimizdə yenidən alovlanır. Bu əsrlər öncədən bizə gələn, babalarımızın ocağından qalanan həyat eşqidir. Od çərşənbəsi gələndə yerin altındakı donmuş damarlar isinməyə başlayır elə bil. Torpaq nəfəs alır, günəş isə yer üzünə daha mərhəmətlə baxır. Bu gün qalanan hər bir tonqal qaranlığın məğlubiyyəti, işığın zəfəridir.

Göy üzü alaqaranlığa bürünəndə kəndlərimizin, şəhərlərimizin hər küçəsində bir həyəcan başlayır, elə göy üzü də hazırlıq görür. Uşaqların qaçışması, qonşu-əqrəbanın bir araya gəlməsi ocağın istisinə bərabər bir doğmalıq yaradır. Tonqalın alovu göyə ucaldıqca insanın içindəki kədərlər, ötən ilin uğursuzluqları, bədbin düşüncələri də o alovun içində yanıb kül olur. Biz o tonqalın üzərindən tullananda "Ağırlığım, uğurluğum düşsün odun üstünə" deyərkən, əslində, ruhumuzu təmizləyirik, sabaha daha saf, daha ümidli addımlamaq üçün güc yığırıq. Od bizi paklayır, od bizi birləşdirir. Qırmızı alov dilləri göyə ucaldıqca göylə yer arasında bir işıq körpüsü qurulur və biz bu körpüdən keçərək baharın astanasına qədəm qoymuş oluruq.

Bu çərşənbənin hər qığılcımında bir xatirə var bizim üçün. Analarımızın bişirdiyi şəkərburaların ətri qalanan odun qoxusuna qarışanda zaman bizi lap əvvəlki vaxtlarımıza aparır. Süfrələrin bəzəyi olan səməni ümidi, qırmızı lent isə odun hərarətini ifadə edir. Od çərşənbəsi həm də bir oyanışdır. Təbiətin oyanışından əvvəl də insanın daxili aləminin oyanışıdır. Donmuş duyğularımız əriyir, küsülülər barışır, qəlblər bir-birinə yenidən isinir. Çünki odun qarşısında hamı eyni istiyə möhtacdır və eyni işığa baxır.

O uzaqdan görünən alovlar yer üzünün ulduzlarıdır, əslində. Hər evdən yüksələn tüstü bir ocağın yanar olduğunu, bir ailənin birliyini müjdələyir. Qədim inanclara görə od müqəddəsdir, o şəri qovur, xeyiri gətirir. Bizim milli ruhumuzda od həm də bir mübarizə rəmzidir. Heç vaxt sönməyən, həmişə yanan və ətrafına işıqsaçan bir iradədir. Bu gün qəlblərimizdə yanan ocaq heç vaxt sönməməlidir. Çünki o ocaq bizim keçmişimizlə gələcəyimiz arasında qurulan ən möhkəm körpüdür.

Od çərşənbəmiz mübarək olsun! Bu müqəddəs alov evlərimizə ruzi-bərəkət, qəlblərimizə isə sönməyən bir sevgi istisi gətirsin. Hər yanan tonqal bir arzumuzun çin olmasına vəsilə olsun. Ruhumuz həmişə bugünkü kimi aydın, ömrümüz də bahar kimi təravətli olsun.

Bu çərşənbə bizi inandırmağa çalışır ki, nə qədər çətinlik olsa da, işıq həmişə qaranlığa qalib gəlir. Heç vaxt ocaqlarımız sönməsin, evlərimizdən istilik, qəlblərimizdən sevgi əskik olmasın. Bahar bu alovun işığından daha da gözəl, daha da ümidli gəlsin.

**"Şərq qapısı"**

## Naxçıvanlı döyüşçülərdən 12 medal və Avrasiya çempionluğu



Ötən günlərdə xəbər verdiyimiz kimi, Sərhədçi İdman Mərkəzində MMA idman növü üzrə uşaqlar və yeniyetmələr arasında Azərbaycan birinciliyi keçirilib. İki gün davam edən yarışda Naxçıvan Muxtar Respublikasını "Turan" Döyüş Klubu təmsil edib. Baş məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə yarışa 2 məşqçi və 20 idmançı qatılıb. Gərgin və maraqlı mübarizə şəraitində keçən çempionatda Naxçıvan təmsilçiləri, ümumilikdə, 12 medal qazanaraq uğurlu nəticəyə imza atıblar. Medallardan 4-ü qızıl, 4-ü gümüş, 4-ü isə bürünc əyarlı olub. Ölkə birinciliyindən sonra "Turan" Döyüş Klubu daha bir mötəbər yarışda qüvvəsini sınayıb. Azərbaycanda AIGA təşkilatının qrappling üzrə ilk Avrasiya çempionatı keçirilib. Yarışda klubun 15 idmançısı iştirak edib. Nəticədə, komanda çempionatı 2 qızıl, 1 gümüş və 7 bürünc medalla başa vurub. Biz də yarış iştirakçıları ilə həmsöhbət olaraq onların təəssüratlarını öyrəndik.

Respublika birinciliyi və Avrasiya çempionatında uğur qazanan idmançılardan biri Həmid Əkbərlidir. Üç ilə yaxındır ki, MMA ilə məşğul olan gənc idmançı bu müddət ərzində bir sıra yarışlarda iştirak etdiyini bildirib. Onun sözlərinə görə, respublika birinciliyində 14-15 yaş kateqoriyası üzrə 71 kq çəki dərəcəsində mübarizə aparıb: "Yarışda iki rəqibim var idi. Hər iki görüşü xal fərqi ilə qazanaraq birinci yerə layiq görüldüm və respublika çempionu oldum".

Həmid Əkbərli qeyd edib ki, Avrasiya çempionatında da uğurunu davam etdirib: "Bu yarışda da iki rəqibim var idi. Onlardan biri qazaxıstanlı, digəri isə azərbaycanlı idmançı idi. Hər ikisinə qalib gələrək çempion adına layiq görüldüm".

Qeyd edək ki, Həmid Əkbərli həm respublika birinciliyində, həm də Avrasiya çempionatında iştirak edərək hər iki yarışda qızıl medal qazanıb.

Respublika birinciliyi və Avrasiya çempionatında uğurlu çıxış edən idmançılardan biri də Rəhim Quluzadə olub. O, respublika yarışında göstərdiyi performansdan məmnun qaldığını bildirib: "Respublika birinciliyində bütün görüşlərə ciddi hazırlaşmışdım. Gərgin keçən mübarizədən sonra çempion olmağı bacardım. Bu qələbə mənim üçün böyük motivasiya oldu".

Rəhim Quluzadə Avrasiya çempionatındakı çıxışını da xüsusi vurğulayıb: "Avrasiya çempionatında qazaxıstanlı və azərbaycanlı rəqiblərimə qarşı mübarizə apardım. Hər iki görüş çətin keçdi, amma qələbə qazanaraq Avrasiya çempionu oldum. Bu uğur həm mənim, həm də komandamız üçün qürurvericidir".

Rəhim qeyd edib ki, qazandığı nailiyyətlər gələcək yarışlara daha böyük həvəslə hazırlaşmasına stimul verir.

MMA üzrə isə Kamal Mustafazadə Azərbaycan birinciliyində iştirak edib. O bildirib ki, ölkə birinciliyində 11 idmançı arasında mübarizə apararaq üçüncü yerə layiq görülüb: "Yarış kifayət qədər gərgin keçdi. Rəqiblər güclü idi, amma əlimdən gələni etdim və 3-cü yeri qazandım".

Kamal qeyd edib ki, bu onun respublika birinciliyində ikinci iştirakı olub. O, MMA üzrə hər iki yarışda bürünc medal qazanaraq sabit nəticə göstərib. İdmançı uğurunda müəlliminin və ailəsinin dəstəyinin böyük rol oynadığını vurğulayıb və gələcəkdə daha yüksək nəticələr əldə etməyi qarşısına məqsəd qoyduğunu bildirib.

Azərbaycan çempionatında çıxış edən idmançılardan biri də Əbülfəz Cəfərov olub. O bildirib ki, ölkə çempionatında 5 rəqiblə qarşılaşıb: "Beş görüş keçirdim. Onlardan dördündə qalib gəldim, bir görüşdə isə məğlub oldum. Ümumilikdə, çıxışımdan razı qaldım və yaxşı təcrübə qazandım". Əbülfəz Cəfərov 13-15 yaş kateqoriyası üzrə keçirilən Avrasiya çempionatında da iştirak edib. Onun sözlərinə görə, həmin yarışda qazaxıstanlı rəqibinə məğlub olaraq üçüncü yerə layiq görülüb. İdmançı qeyd edib ki, bu yarışlarla yanaşı, bir çox turnirlərdə və Azərbaycan çempionatlarında iştirak edib, ölkə çempionu adına layiq görülüb və müxtəlif nailiyyətlər qazanıb. O, gələcək yarışlarda daha yüksək nəticələr əldə etməyi qarşısına məqsəd qoyduğunu vurğulayıb.

**Zəhra VƏLİYEVA**

## "Ordubad" komandası ölkə birinciliyində uğurlu nəticələr qazanıb



Azərbaycan Atletika Federasiyası və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 20-21 fevral 2026-cı il tarixlərdə 2009-2010-cu il təvəllüdlü idmançılar arasında qapalı məkanda ölkə birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata əsasən iki gün davam edən yarışda ölkənin müxtəlif bölgələrini təmsil edən 200-ə yaxın atlet mübarizə aparıb.

Birincilikdə Naxçıvan Muxtar Respublikasını "Ordubad" komandası təmsil edib. Komandanın heyətində baş məşqçi Əmrah Nağıyev və 7 idmançı yer alıb. Naxçıvan təmsilçiləri yarışda 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq uğurlu nəticəyə imza atıblar.

Namiq Babayev növbəti dəfə ardıcıl qələbələrə nail olaraq iki qızıl medal qazanıb. Belə ki, istedadlı atlet 800 və 1500 metr məsafədə finiş xəttini birinci keçərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Aysel Hüseynova 3000 metrdə gümüş, Rüqeyya Məmmədli isə eyni məsafədə bürünc medal qazanıb.

### İtmişdir

Naxçıvan şəhəri, Qaraçuq kəndində yerləşən Seyidov Mirsaleh Mirələsgər oğluna məxsus JN-001$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Murad Kalbalı oğlunun adına olan Culfa şəhəri, Təbriz küçəsi, ev 11, mənzil 54 ünvanındakı mənzilin 2221 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, məhəllə 9, döngə 2, ev 4-də yaşayan Vəliyeva Nargilə Məharət qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kənd sakini Nəcəfov Elşad Sabir oğlunun adına verilmiş JN-44 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Rzayeva Mətanət Məmməd qızının adına olan Dəstə kəndində yerləşən qeyri-yaşayış binasına aid 4744 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Rzazadə Məmmədəli Əhmədəli oğlunun adına olan JN-604$^{A}$ nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Kazımov Etibar Səfər oğlunun adına olan JN-0080 nömrəli, 10200078 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Hüseynəliyev Fətulla Bəşir oğluna məxsus JN-457$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarahəsənli kənd sakini Rəsulov Yəhya Məmməd oğluna məxsus JN-202$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşayan Nəcəfov Allahverdi Nağdəli oğluna məxsus JN-2030$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Quliyeva Bülqeyis Qafar qızının adına olan JN-498$^{A}$ nömrəli, 10207018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızıl Qışlaq kəndində yaşamış Məmmədova Dilbər Lazım qızının adına olan JN-86$^{A}$ və JN-86$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 47

Nömrəyə məsul: Ceyhun Məmmədov, Zəhra Vəliyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.